Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

7 MART 2018 18 [1508]

# Mədəniyyət

www.medeniyyet.az




2



## Yapon mədəni irsi Milli İncəsənət Muzeyinin kolleksiyasında

Azərbaycan Milli İncəsənət Muzeyində "Yapon incəsənəti" adlı gözəl bir sərginin açılışı oldu. Tədbirdə bildirildi ki, 18 minədək eksponatın qorunduğu bu sənət məbədində yapon incəsənətinə dair təxminən 200 eksponat var. Bu sərgidə muzeyin fondundan əsasən yapon keramika və ipək üzərində tikmə sənəti nümunələri nümayiş olunur.

5

3

## Şağanda yeni Mədəniyyət mərkəzi istifadəyə verilib

Paytaxtın Xəzər rayonunun Şağan qəsəbəsində yeni inşa edilən Mədəniyyət mərkəzinin açılış mərasimi olub. İki mərtəbədən ibarət Mədəniyyət mərkəzinin binasının inşasına 2014-cü ildə başlanılıb. Mərkəzdə 200 yerlik tamaşa zalı, kinozal, kinoproyeksiya, qrim otağı, rəssam emalatxanası, musiqi dərnəyi, oxu zalı, kitab fondu, tətbiqi incəsənət, ədəbiyyat, evdarlıq dərnəkləri, rəqs zalı, 41 yerlik amfiteatr, işıq aparatları və səs operator otaqları yaradılıb.



## Beynəlxalq Qadınlar Gününə həsr olunur

3



Azərbaycan Dövlət Akademik Filarmoniyasında 8 mart - Beynəlxalq Qadınlar Gününə həsr olunan konsert proqramı təqdim edilib. "Gənclərə dəstək" layihəsi çərçivəsində reallaşan konsertdə Xalq artisti Ağaverdi Paşayevin bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, o cümlədən Azərbaycan Milli Konservatoriyasının tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının şagirdləri çıxış ediblər.

## Həsən Turabovun 80 illik yubileyi keçiriləcək

Prezident İlham Əliyev martın 6-da Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, dövlət mükafatları laureatı, Xalq artisti Həsən Səttar oğlu Turabovun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, sənətkarın çoxsaylı tamaşalarda və ekran əsərlərində böyük ustalıqla canlandırdığı mürəkkəb xarakterli, müxtəlif dünyagörüşlü obrazlar ölkə teatrı tarixinin və kinematoqrafiyasının nailiyyətləri sırasında həmişəlik yer tutmuş qiymətli sənət inciləridir.

Sərəncamda Mədəniyyət və Turizm Nazirliyinə Xalq artisti Həsən Turabovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Qadınlar təltif olunub

Dövlət başçısı martın 6-da Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, ölkənin təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə bir qrup qadına "Əməkdar müəllim", "Əməkdar həkim", "Əməkdar mədəniyyət işçisi" fəxri adları verilib.

Prezidentin digər sərəncamı ilə respublikamızın ictimai həyatında səmərəli fəaliyyətlərinə görə bir qrup xanım "Tərəqqi" medalı ilə təltif edilib.

## Prezident Azərbaycan qadınlarını təbrik edib

Prezident İlham Əliyev 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib. Təbrikdə vurğulanır ki, sivilizasiyaların qovuşuğunda özünün misilsiz mədəni-mənəvi sərvətlər xəzinəsini yaratmış xalqımızın çoxəsrlik zəngin irsinin yaşadılmasında, milli düşüncəmizin parlaq ifadəçisinə çevrilmiş dilimizin saflığının qorunub saxlanılmasında analarımızın müstəsna xidmətləri var. Ədəbiyyatımızda daim gözəlliyin və zərifliyin mücəssəməsi, sədaqətin və ülviliyin rəmzi kimi vəsf olunan dərin mənəviyyatlı Azərbaycan qadını, həmçinin güclü iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə seçilərək yurdun mübarizə salnaməsində silinməz izlər qoyub.

Yüzüncü ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin Şərq aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verməsi məhz ictimai-siyasi fikir və mədəniyyət tariximizin görkəmli simalarının cəmiyyətin ahəngdar inkişafında, taleyüklü məsələlərin ədalətli həllində qadınların fəaliyyətini layiqincə qiymətləndirmələrinin nəticəsidir.

"Əminəm ki, müqəddəs ailə dəyərlərimizin toxunulmazlığı keşiyində dayanmaqla bərabər gənc nəslin doğma yurdumuza və milli ideallarımıza bağlılıq ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvənizi əsirgəməyəcək, ictimai-mənəvi mühitimizin davamlı zənginləşməsinə yeni-yeni töhfələr verəcəksiniz", - deyə təbrikdə qeyd olunur.

**Allah rəhmət eləsin**

Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi və kollektivi tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi

**Tahir Əkbərin**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Mədəni əlaqələrimizin möhkəmləndirilməsində xidmətlərinə görə

### Prezident İlham Əliyev Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevə "Dostluq" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevi qəbul edib.**



Dövlətimizin başçısı Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevin keçən il qeyd olunan yubileyi münasibətilə təbriklərini çatdırıb və onun Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edildiyini vurğulayıb. Prezident Məmmədəli Ağayevin 25 ildən artıqdır ki, Moskva Akademik Satira Teatrının direktoru vəzifəsində işlədiyini qeyd edərək onun Rusiyada teatr sənətinin inkişafına böyük töhfə verdiyini deyib. Moskva Akademik Satira Teatrının Rusiyanın aparıcı teatrlarından biri olduğunu qeyd edən dövlət başçısı xalqımızın nümayəndəsinin uzun illər belə yüksək vəzifədə fəaliyyət göstərərək böyük hörmət qazandığını vurğulayıb.

Prezident Məmmədəli Ağayevin həmişə Azərbaycanla yaxından əlaqə saxladığını, vətənindən ayrılmadığını, eyni zamanda Rusiya-Azərbaycan əlaqələrinin inkişafında rolunu yüksək qiymətləndirərək bildirib ki, ikitərəfli münasibətlərimizin inkişafında mədəniyyət əlaqələri xüsusi rol oynayır.

Dövlət başçısı keçən il imzaladığı sərəncamla Məmmədəli Ağayevin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə təltif edildiyini bildirib və "Dostluq" ordenini ona təqdim edib.

Bir çox dövlət mükafatlarına layiq görüldüyünü qeyd edən Məmmədəli Ağayev Azərbaycan Respublikasının "Dostluq" ordeninin onun üçün xüsusi dəyər daşıdığını vurğulayıb. O, 38 ildir Moskvada yaşadığını qeyd edərək bildirib ki, bütün ömrünü teatr sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının möhkəmlənməsi işinə həsr edib və bundan sonra da Rusiya-Azərbaycan mədəni əlaqələrinin yüksək səviyyədə olması üçün səylərini əsirgəməyəcək.

Sonda xatirə şəkli çəkdirilib.

# Bakıda "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalı başlanır

### Festivalda 15-dən çox ölkə iştirak edəcək




**Martın 7-də Bakıda Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Bəstəkarlar İttifaqı və Azərbaycan Milli Konservatoriyası tərəfindən keçirilən "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalı başlanır.**

Martın 14-dək davam edəcək festival çərçivəsində Bakı və Gəncə şəhərlərində Azərbaycan və xarici ölkə musiqiçilərinin iştirakı ilə konsertlər, beynəlxalq elmi simpozium və muğam müsabiqəsinin keçirilməsi nəzərdə tutulub. Festivalın bədii rəhbəri Xalq artisti, Bəstəkarlar İttifaqının sədri, professor Firəngiz Əlizadədir.

Tədbirlərdə iştirak etmək üçün Türkiyə, Moldova, Polşa, İran, İraq, Özbəkistan, İordaniya, Misir, Suriya, Tacikistan, Qazaxıstan, Mərakeş, Gürcüstan, Hindistan, İsrail və digər ölkələrdən musiqiçi və münsiflər heyəti dəvət olunub.

Festivalın açılış mərasimi martın 7-də Heydər Əliyev Sarayında reallaşacaq. Tədbirdə tanınmış kollektivlər - Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Fəxrəddin Kərimov), Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər Gülbacı İmanova), Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupu (baletmeyster Cəmilə Bayramova), Bakı Xoreoqrafiya Akademiyasının tələbələri və solistlər - Gülyaz Məmmədova, İlkin Əhmədov, Afaq Abbasova, Anton Fernştat, Sahib Paşazadə, Toğrul Əsədullayev və başqaları iştirak edəcəklər.

Azərbaycan Milli Elmlər Akademiyasında martın 7-10-da "Muğam ənənəsi elm və incəsənət qovşağında" mövzusunda beynəlxalq simpozium keçiriləcək. Tədbirdə Fransa, Kanada, Hollandiya, Türkiyə, İran, Macarıstan, Özbəkistan və Serbiyadan dəvət olunmuş xarici qonaqlar iştirak edəcəklər.

Azərbaycan Milli Konservatoriyasında 10-13 mart tarixində beynəlxalq muğam müsabiqəsi təşkil olunacaq. Müsabiqə iştirakçılarını Azərbaycandan münsiflər heyətinin sədri, Xalq artisti, professor Siyavuş Kərimi, Polşadan Piotr Pucylo, Türkiyədən Mehmet Bitmez, İrandan Fərhad Fəxrəddini və Tacikistandan Abduvali Abduraşidov kimi musiqi mədəniyyətinin görkəmli nümayəndələri qiymətləndirəcəklər. Müsabiqə instrumental və vokal bölmələri üzrə aparılacaq. Konservatoriyada, həmçinin musiqi gecələrinin keçirilməsi də nəzərdə tutulub. Konsertlərdə "Qarabağ" muğam qrupu və "Qaytağı" instrumental ansamblı görkəmli sənətçi və tanınmış musiqiçilər - Mənsum İbrahimov, Ənvər Sadıqov, Elçin Həşimov, Elnur Əhmədov, Təyyar Bayramov, Aytən Məhərrəmova, Kamran Kərimov, İdris Hüseynov və Kamran Novruzov ilə birgə çıxış edəcəklər.

Beynəlxalq Muğam Mərkəzində keçiriləcək konsertlərdə "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" və "Hümayun" muğamları istedadlı ifaçılar - Elnur Zeynalov, Qoçaq Əsgərov, Arzu Əliyeva, Babək Niftəliyev, Nisbət Sədrayeva, Məmməd Nəcəfov, Abgül Mirzəliyev və başqaları tərəfindən tamaşaçılara təqdim olunacaq.

Festival günlərində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik, Dövlət Xalq Çalğı Alətləri, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrlərinin, eləcə də Azərbaycan Dövlət Rəqs Ansamblının, Dövlət Xor Kapellasının, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, "Cəngi" etnocaz qrupunun çıxışları da nəzərdə tutulub.

Martın 12-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Firəngiz Əlizadənin "Nəsimiyə ithaf" vokal-xoreoqrafik tamaşası təqdim olunacaq. Tamaşa ilk dəfə 2017-ci il mayın 18-də Fransada, UNESCO-nun mənzil-qərargahında, Azərbaycan şairi Nəsiminin edamının 600 illiyinə həsr edilmiş tədbirdə nümayiş etdirilib.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində Üzeyir Hacıbəylinin "Koroğlu" operası, Qara Qarayevin "Yeddi gözəl" baleti, Müslüm Maqomayevin "Şah İsmayıl" operası, Dövlət Musiqili Teatrında "O olmasın, bu olsun" musiqili komediyası, Marionet Teatrında Üzeyir Hacıbəylinin eyniadlı əsəri əsasında "Leyli və Məcnun" marionet tamaşası festival günlərində qonaqlar üçün təqdim olunacaq.

Gəncə şəhərində martın 8-13-də Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası kollektivlərinin iştirakı ilə silsilə konsertlər keçiriləcək.

Festivalın təntənəli bağlanış mərasimi isə martın 14-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil olunacaq. Gecədə Ağaverdi Paşayevin bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və muğam müsabiqəsinin qalibləri çıxış edəcəklər.

**Martın 5-də paytaxtın Xəzər rayonunun Şağan qəsəbəsində yeni inşa edilən Mədəniyyət mərkəzinin açılış mərasimi olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib.**

# Müasir mədəniyyət ocaqları dövlətin bu sahəyə qayğısının göstəricisidir

## Şağan Mədəniyyət mərkəzinin yeni binası istifadəyə verilib

Son illərdə dövlət tərəfindən mədəniyyət sahəsinə göstərilən diqqət və qayğı mövcud mədəniyyət obyektlərinin tamamilə yenidən qurulmasında, həmçinin yeni müasir mədəniyyət ocaqlarının yaradılmasında özünü aydın göstərir. Xəzər rayonunun Şağan qəsəbəsində yeni tikilən Mədəniyyət mərkəzi də bu istiqamətdə görülən işlərdən biridir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verib ki, iki mərtəbədən ibarət Mədəniyyət mərkəzinin binasının inşasına 2014-cü ildə başlanılıb. Mərkəzdə 200 yerlik tamaşa zalı, kinozal, kinoproyeksiya, qrim otağı, rəssam emalatxanası, musiqi dərnəyi, oxu zalı, kitab fondu, tətbiqi incəsənət, ədəbiyyat, evdarlıq dərnəkləri, rəqs zalı, 41 yerlik amfiteatr, işıq aparatları və səs operator otaqları yaradılıb.

Son illərdə ölkədə mədəniyyətin inkişafı ilə bağlı həyata keçirilən layihələrin bariz nümunəsinə çevrilən bu mədəniyyət ocağının yeni binası, ilk növbədə, zəngin Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətinin gənc nəsil arasında təbliği işinə xidmət edir. Digər tərəfdən, bu hadisə mədəniyyətin inkişafının, onun infrastrukturunun yaradılmasının hər zaman dövlətin diqqət mərkəzində olduğunu göstərir. Belə mədəniyyət obyektlərində istənilən tədbiri yüksək səviyyədə təşkil etmək üçün geniş imkanlar var. Bundan başqa, kollektivin, o cümlədən yaradıcı insanların iş şəraitini müasir tələblər səviyyəsinə çatdırmaq baxımından bu cür layihələr mühüm əhəmiyyət kəsb edir. Müasir üslubda inşa edilən binalar həm də yerləşdikləri ərazinin gözəlliyini artırır. Bütün bunlar bir daha sübut edir ki, mədəniyyətimizin, incəsənətimizin, musiqimizin tarixi ənənələrini qorumaq və inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasətində də əksini tapıb.



Mədəniyyət mərkəzinin ətrafındakı ərazi abadlaşdırılıb, ağaclar əkilib və yaşıllıq salınıb.

Mərkəzlə tanış olan Mehriban Əliyeva kollektivə uğurlar arzulayıb.

# Beynəlxalq Qadınlar Gününə həsr olunur



Azərbaycan Dövlət Akademik Filarmoniyasında 8 mart - Beynəlxalq Qadınlar Gününə həsr olunan konsert proqramı təqdim edilib.

"Gənclərə dəstək" layihəsi çərçivəsində reallaşan konsertdə Xalq artisti Ağaverdi Paşayevin bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri çıxış edib.

Gecədə Hacı Xanməmmədovun "Arfa üçün konsert", Azər Rzayevin "Düşüncə", Süleyman Ələsgərovun "Tarantella", "Rəqs-tokkata", "Şaloxo", "Aşıqvarı", "Poema", Nazim Əliverdibəyovun "Elegiya", Fikrət Əmirovun "Kor ərəbin mahnısı", Ələkbər Tağıyevin "Sən gəlməz oldun", Vasif Adıgözəlovun "Qərənfil", Həsən Rzayevin "Çahargah" rapsodiyası" əsərləri səslənib, "Qarabağ şikəstəsi" ifa olunub.

Musiqili gecədə Azərbaycan Milli Konservatoriyasının tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının şagirdləri də çıxış ediblər.

* * *

Martın 7-də Xətai Sənət Mərkəzində "Qadınların dünyada rolu" adlı sərgi açılacaq. Sərgi Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Bəstəkarlar İttifaqı, Azərbaycan Fotoqraflar Birliyi və Xətai Sənət Mərkəzinin dəstəyi ilə təşkil edilib.

Sərgidə təsviri və tətbiqi sənətin bütün növləri üzrə 100-dən çox rəssamın əl işləri nümayiş olunacaq.

* * *

Azərbaycan Dövlət Musiqili Teatrında isə martın 8-i "açıq qapı" günü keçiriləcək.

Teatrın mətbuat xidmətindən bildirilib ki, sənət ocağı Beynəlxalq Qadınlar Günü münasibətilə tamaşaçılarına görkəmli yazıçı-dramaturq Əli Səmədlinin "Toya bir gün qalmış" komediyasını hədiyyə edəcək. Səhnə əsərində baş rolu Xalq artisti Afaq Beşirqızı oynayır. Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərov, rəssamı Nabat Səmədova, musiqi rəhbəri Xalq artisti Ənvər Sadıqov, musiqi tərtibatçısı Emin Həsənov, baletmeysterləri Yelena və Zakir Ağayevlərdir.



## Qadın hüquqlarından sevgi və zəriflik bayramına...

8 mart Beynəlxalq Qadınlar Günüdür. XX əsrin əvvəlində sosial-demokrat qadın hərəkatının simvolik tarixi kimi ortaya çıxan, daha sonra kommunist təmayüllü bayram (xüsusilə SSRİ-də) kimi qeyd edilən bu gün əsrin ikinci yarısında tədricən siyasi çalarlarını itirdi.

Onu da qeyd edək ki, Azərbaycanın da daxil olduğu Sovetlər Birliyində 8 mart 1966-cı ildə rəsmi bayram - qeyri-iş günü elan olunub və o vaxtdan kişilər də qadınların hesabına bu günü istirahət edirlər. Hərçənd bu "istirahət" nəticədə onlara baha başa gəlir. 1977-ci ildə isə BMT Baş Assambleyası dünya ölkələrinə 8 martı "hər bir ölkənin adət və ənənələrinə uyğun olaraq" qadın hüquqları uğrunda beynəlxalq gün kimi qeyd etməyi tövsiyə edib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 8 mart təqvimimizdə öz yerini qorudu. Zaman və dövranla bərabər bu günün mahiyyəti də dəyişib və gözəllik, zəriflik, sevgi və səadət bayramı kimi özəllik qazanıb. Biz də Azərbaycanın bütün xanımlarını bayram münasibətilə təbrik edir, sevinc dolu günlər, xoş həyat arzulayırıq.

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ilin yanvarına ölkə əhalisinin ümumi sayının 50,1 faizi və ya 4 milyon 960 min 100 nəfərini qadınlar təşkil edib. Ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edən Azərbaycan qadınlarının məşğul əhalinin ümumi sayında xüsusi çəkisi 48,2 faizdir. Onlar ən çox təhsil sistemində, mədəniyyət və səhiyyə sahəsində çalışırlar. Elmi işçilərin 56 faizini qadınlar təşkil edir. Dövlət qulluğunda çalışanlar arasında xanımlar 28,5 faiz, sahibkarlar arasında isə 21,5 faizdir.

# Azərbaycan və Türkiyə xanımlarının əl işləri sərgisi




Martın 6-da Gəncliyə Yardım Fondunda Beynəlxalq Qadınlar Günü münasibətilə "Azərbaycan və Türkiyə xanımlarının əl işləri - xeyriyyə sərgisi" təşkil edilib.

Gəncliyə Yardım Fondunun prezidenti Əhməd Tecim tədbiri açaraq bildirib ki, ənənəvi xeyriyyəçilik aksiyası hər il yeni layihələrə həsr olunur. Builki xeyriyyə sərgisindən əldə olunacaq vəsait də fondun "100 illik əmanət" və "Qardaşlığımız əbədidir" layihələrində istifadə ediləcək. Layihə çərçivəsində Cümhuriyyətin 100 illiyi ilə əlaqədar olaraq tələbələr üçün məlumat turu təşkil ediləcək.

Milli Məclisin deputatı Sona Əliyeva, Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoralın həyat yoldaşı Meltem Özoral, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Cihan Özdemir və başqaları çıxışlarında əlamətdar gün münasibətilə xanımları təbrik edərək onların cəmiyyətdə oynadığı rolu qeyd ediblər.

Tədbirdə iki qardaş ölkənin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi yad edilib, "Qardaşlığımız əbədidir" adlı videoçarx nümayiş olunub.

Sərgi 3 gün davam edəcək.

## Azərbaycanda Amerika Ticarət Palatasının nümayəndələri ilə görüş

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev martın 6-da Azərbaycanda Amerika Ticarət Palatasının direktorlar şurasının üzvü Nuran Kərimov, icraçı direktor, direktorlar şurasının katibi Natəvan Məmmədova və digər üzvlərdən ibarət nümayəndə heyəti ilə görüşüb.

Görüşdə nazir hava nəqliyyatının inkişafından, turistlər üçün viza rejiminin sadələşdirilməsi ilə bağlı dövlət tərəfindən görülən işlərdən, "ASAN Viza" sisteminin tətbiq olunmasının turizmin inkişafına təsirindən danışıb. Bildirib ki, sadələşdirilmiş viza rejimi ölkəmizə gələn turistlərin sayının artmasında böyük rol oynayır.

Azərbaycanda Amerika Ticarət Palatasının nümayəndələri turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının yaradılmasının həmin bölgələrdə turizmin inkişaf etdirilməsi üçün zəmin yaradacağını qeyd ediblər və palataya üzv şirkətlərin bu ərazilərdə müxtəlif layihələrin həyata keçirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Sonra mədəniyyət və turizm sahələrində əməkdaşlıq layihələrinin həyata keçirilməsi haqqında müzakirələr aparılıb.

## Dövlət Proqramında xalça sənətinin inkişafına dair mühüm tədbirlər yer alıb

Xəbər verildiyi kimi, ölkə başçısı "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Milli xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, bu sahədə ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə hazırlanan Dövlət Proqramında bir çox tədbirlər nəzərdə tutulub.

Proqrama əsasən, Bakıda və regionlarda fəaliyyət göstərən xalçaçılıq emalatxanaları Azərbaycanın mədəni turizm marşrutlarına daxil ediləcək. Ölkə daxilində və xaricdə muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalçaları barədə kataloq hazırlanacaq. Kataloqun hazırlanmasını Mədəniyyət və Turizm Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Azərbaycan Xalça Muzeyi, "Azərxalça" ASC təmin etməlidir.

Eyni zamanda Mədəniyyət və Turizm, İqtisadiyyat nazirliklərinə, "Azərxalça"ya itirilmə təhlükəsi olan nadir Azərbaycan xalçalarının və xalça məmulatlarının müasir üsullarla bərpasına dəstək mexanizmləri ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi tapşırılıb. Mədəniyyət və Turizm, Xarici İşlər nazirlikləri, AMEA və "Azərxalça" xarici ölkələrin muzeylərində saxlanılan nadir Azərbaycan xalçalarının Azərbaycana mənsubluğunun göstərilməsi istiqamətində fəaliyyət həyata keçirməlidir. Həmçinin Azərbaycan Xalça Muzeyi üçün əhəmiyyət kəsb edən eksponatların alınması, Azərbaycan xalçalarının dünyaya tanıdılması məqsədilə xaricdə sərgilərin təşkil edilməsi, xalçaların müasir interpretasiyası, beynəlxalq əlaqələrin qurulması ilə bağlı tədbirlər nəzərdə tutulub.

Proqramda "Azerbaijan carpet" ("Azərbaycan xalçası") brendinin yaradılması da əksini tapıb. İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC-yə Azərbaycanda istehsal olunan xalçaların ixracının təşviqi üçün internet portalının yaradılması da tapşırılıb.

# Mədəniyyət və turizm əməkdaşlığı müzakirə olunub

### Nazir Əbülfəs Qarayev Qazaxıstan və İndoneziya səfirləri ilə görüşüb

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev martın 8-də Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beibit İssabayev ilə görüşüb.

Görüşdə Azərbaycan və Qazaxıstan arasında mədəniyyət və turizm sahələri üzrə əməkdaşlıq məsələləri, hər iki ölkədə keçirilən tədbirlərdə qarşılıqlı iştirak, turist mübadiləsi və birgə layihələr müzakirə edilib.

Nazir 2017-ci ildə xarici ölkələrdən Azərbaycana gələn turist sayının 20 faiz artdığını diqqətə çatdıraraq bu artımda Qazaxıstan vətəndaşlarının da payının olduğunu bildirib. Qeyd olunub ki, Qazaxıstandan ölkəmizə 37 minə yaxın turist səfər edib.

Görüş zamanı həmçinin, Qazaxıstanın paytaxtı Astananın 20 illik yubiley tədbirlərində Azərbaycanın təmsil olunması, 2019-2020-ci illərdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi barədə fikir mübadiləsi aparılıb.



* * *

Nazir Əbülfəs Qarayev İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan Bəy Fənani ilə də görüşüb. Görüşdə iki ölkə arasında mədəniyyət və turizm sahələri üzrə əməkdaşlıq məsələlərindən söz açılıb.

Səfir 2016-2017-ci illərdə Azərbaycanda keçirilən İndoneziya mədəniyyət festivalının təşkilində dəstəyə görə təşəkkürünü bildirib və bu ilin sentyabr ayında bu festivalın yenidən keçirilməsinin planlaşdırıldığını deyib. O, nazirlik tərəfindən bu festivala yenidən dəstək göstərilməsini xahiş edib.

Əbülfəs Qarayev nazirliyin mədəniyyət sahəsində keçiriləcək tədbirlərə müvafiq dəstəyin göstərilməsinə hər zaman hazır olduğunu vurğulayıb.

Səfir ölkəmizin turizm potensialına toxunaraq İndoneziyanın turizm şirkətlərinin Azərbaycanla əməkdaşlıqda maraqlı layihələrinin olduğunu bildirib.

Nazir İndoneziya ilə bu sahədə fəal əməkdaşlıq etməyə hazır olduğunu və bu məqsədlə aidiyyəti şəxsləri təlimatlandıracağını bildirib.

# "Ulduz Sönməz: Mən belə yaşadım..." kitabının təqdimatı keçirildi

**Martın 6-da Azərbaycan Milli Kitabxanasında tanınmış aşıq, şair, Əməkdar mədəniyyət işçisi Ulduz Quliyevanın həyat və yaradıcılığından bəhs edən "Ulduz Sönməz: Mən belə yaşadım..." kitabının təqdimat mərasimi keçirildi. Tədbir Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Aşıqlar Birliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşdı.**



Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək Aşıqlar Birliyi ilə birgə reallaşdırılan layihələrin milli-mənəvi dəyərlərimizin, aşıq sənətinin təbliğinə töhfə verdiyini bildirdi. Kitab haqqında söz açan direktor qeyd etdi ki, Ulduz Sönməz 50 illik yaradıcılıq fəaliyyətində saz-söz sənətinə töhfələr verib, aşıq şeirimizin gözəl nümunələrini yaradıb.

Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyət müəssisələri və xalq yaradıcılığı şöbəsinin müdiri Fikrət Babayev kitabın əhəmiyyətindən bəhs etdi. Bildirdi ki, nəşrdə Ulduz Sönməzin keçdiyi ömür və sənət yolunun ayrı-ayrı məqamlarını əks etdirən xatirələr, son illərdə yazdığı şeirlər və yazışmaları ilə yanaşı, respublikanın tanınmış dövlət, elm və sənət xadimlərinin onun yaradıcılığı ilə bağlı fikirləri, mətbuata verdiyi müsahibələr, müxtəlif vaxtlarda ona ünvanlanmış məktublar, dövlət təltifləri haqda məlumatlar və s. yer alıb: "Bu kitab Ulduz Sönməzin həyat və yaradıcılığına işıq salmaqla yanaşı, çağdaş dövrdə aşıq sənətini, bu sənəti yaşadanları öyrənən tədqiqatçılar və aşıqlıqda yeni addımlar atan gənclər üçün dəyərli mənbədir".



Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı sənətkarın aşıq sənətinin inkişafında xidmətlərindən danışdı. Qeyd etdi ki, sənət aləmində yarım əsrdir fəaliyyətdə olan aşıq Ulduz artıq öz obrazını yaradıb. M.Qasımlı dövlət tərəfindən aşıq sənətinə böyük diqqət yetirildiyini vurğulayaq bildirdi ki, aşıq Ulduzun da bu sənətin inkişafında rolu xüsusi qeyd olunmalıdır. O, gözəl sənətkar olmaqla yanaşı, həm də "Qopuz" jurnalının təsisçisi, ustad aşıq, pedaqoq, dəyərli ziyalıdır. Onun yaradıcılıq axtarışlarına hələ çox şahidlik edəcəyik.

Tədbirdə daha sonra Xalq artisti Ramiz Quliyev, professor Qəzənfər Paşayev, Əməkdar mədəniyyət işçisi Gülara Azaflı, Aşıq Ələsgərin ev-muzeyinin yaradıcısı Hüseyn Həsənov və başqaları çıxış edərək aşığın yaradıcılığından söz açdılar, kitab haqqında fikirlərini bölüşdülər.

Sonda aşıq Ulduz Sönməz çıxış edərək təqdimat mərasiminin təşkilində əməyi olanlara və iştirakçılara öz dərin təşəkkürünü bildirdi.

Qeyd edək kitabın nəşrə hazırlayanı və redaktoru Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

**Savalan Fərəcov**

Yapon dilində "incəsənət" sözünü yazmaq üçün iki heroqlifdən istifadə edirlər: bi - gözəllik, jutsu isə bacarıq deməkdir. Deməli, "bijutsu" kəlməsini gözəlliyi yaratmaq, duymaq bacarığı kimi də tərcümə etmək olar.

# Yapon mədəni irsi Milli İncəsənət Muzeyinin kolleksiyasında

## "Bijutsu" gözəllik və bacarıq deməkdir







Martın 5-də Azərbaycan Milli İncəsənət Muzeyində "Yapon incəsənəti" adlı gözəl bir sərginin açılışı oldu. Mərasimdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, ölkəmizdəki diplomatik korpusun nümayəndələri, rəssam və sənətşünaslar, tanınmış ziyalılar iştirak edirdi.

Muzeyin direktoru Çingiz Fərzəliyev qonaqları salamlayaraq bildirdi ki, 18 minədək eksponatın qorunduğu bu sənət məbədində yapon incəsənətinə dair təxminən 200 eksponat var. Sovet hakimiyyəti qurulandan sonra Bakı burjuaziyasının müsadirə olunmuş əmlakından formalaşan bu kolleksiya sonralar Moskva və Sankt-Peterburq muzey fondları və Sovet İttifaqının digər muzeyləri ilə eksponat mübadiləsi sayəsində bir qədər də zənginləşib. Təqdim olunan "Yapon incəsənəti" sərgisi "Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasındakı dünya incəsənəti" sərgi silsiləsinin davamıdır. İlk sərgi ötən il Fransa incəsənətinə həsr olunmuşdu.

Tədbirdə çıxış edən mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva Yaponiyanın Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən olduğunu diqqətə çatdıraraq ötən müddətdə Gündoğar ölkə ilə istər diplomatik, istərsə də mədəni əlaqələrin inkişaf etdiyini vurğuladı. Yaponiyanın ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq forumlarında da fəal iştirak etdiyini xatırladan nazir müavini hələ 2011-ci ildə Milli İncəsənət Muzeyində Yaponiya səfirliyinin təşəbbüsü və nazirliyin dəstəyi ilə "Buddanın ruhu" sərgisinin böyük müvəffəqiyyətlə keçirildiyini dedi. Bildirildi ki, 2016-cı ildə Mədəniyyət və Turizm Nazirliyi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiya universiteti arasında bağlanmış memoranduma əsasən başlanmış tədqiqatlar ötən il uğurla davam edib. Sevda Məmmədəliyeva bu sərgiyə də paytaxt əhalisinin və Bakının qonaqlarının böyük maraq göstərdiyinə əmin olduğunu söylədi.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Yaponiya təsviri sənətinin özəlliklərindən bəhs edərək sərgini fərqli bir sivilizasiyanın mədəniyyəti ilə canlı ünsiyyət imkanı kimi qiymətləndirdi.

Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori çıxışında vurğuladı ki, diplomatik əlaqələrimizin 25 illik tarixi olsa da, İpək Yolu ilə başlanan mədəni əlaqələrin tarixi 1500 ildən artıqdır: «Bununla belə, Yaponiyadan 7500 km uzaqda yerləşən Azərbaycanda yapon rəssamlığı və dekorativ-tətbiqi sənət nümunələrinin çox olması, yapon keramika sənətinə bələdlik və xoş münasibət məni sevindirir».

Çıxışlardan sonra mərasim iştirakçıları sərgi ilə tanış oldular.

Sərgidə muzeyin fondundan əsasən yapon keramika və ipək üzərində tikmə sənəti nümunələri sərgilənir. Divarları bəzəyən çiçəkləmiş sakura budaqlarının, zərif su bitkilərinin, salxım qlisiniya çiçəklərinin təsviri, təbii dekorativ bitkilərdən yaradılmış "bonsay bağçası" klassik yapon interyeri və təsviri sənət mühiti yaradıb. Daha çox incə işləməli və süjetli naxışlarla bəzədilmiş keramika nümunələrinin arasında fil sümüyündən oyma üsulu ilə düzəldilmiş miniatürlər, samuray katanasının (qılıncının) qını, XVIII-XIX əsrə aid sümük, sədəf və ipək işləməli yelpiklər, XIX əsrin sonu - XX əsrin əvvəlinə aid "Yapon bağı" adlı süjetli qobelen təkcə insan təxəyyülünün, zövq və bacarığının deyil, həm də səbrinin təcəssümü kimi də diqqəti çəkir. XIII əsrdə monqolların işğalına həsr olunmuş 65 səhifəlik illüstrasiyalı tarix dərsliyi, burulmuş papirus kağızı üzərində çəkilmiş incə rəsmlər alleqorik və həyati təsvirli keramika nümunələrini tamamlayır.

Bu gözəlliyi yaradanlar yaradıb, qalır onları seyr edib duymaq.

"Yapon incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" sərgisi mayın sonunadək davam edəcək.

**G.Mirməmməd**

# Gənc yazarlarla görüş və kitab təqdimatı



Mədəniyyət və Turizm Nazirliyi, UNESCO-nun "İnformasiya hamı üçün" proqramının Azərbaycan Komitəsi, Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi, YAP Binəqədi rayon təşkilatı, "Luç" Ədəbi-Yaradıcılıq Birliyi və Binəqədi rayon MKS-nin təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyinin üzvü olan gənc yazarlarla görüş keçirilib. Layihənin əsas məqsədi gəncləri mədəni və ədəbi fəaliyyətə təşviq etmək, gənc yazarları oxuculara tanıtmaqdır. Tədbirdə gənc yazar, şairə Gülnur Aslanın yaradıcılığı haqqında söhbət açılıb və müəllifin "Anqelos" kitabının təqdimatı olub.

Görüşdə Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi sektorunun müdiri, UNESCO-nun "İnformasiya hamı üçün" proqramının Azərbaycan Komitəsinin sədri Lətifə Məmmədova, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, Nazirlər Kabinetinin Humanitar və sosial məsələlər şöbəsinin baş məsləhətçisi Samirə Quliyeva, "Luç" Ədəbi-Yaradıcılıq Birliyinin sədri, professor Tofiq Məlikli, digər qonaqlar, gənc yazarlar iştirak ediblər.

MKS-nin fəal oxucuları Gülnur Aslanın rus dilində şeirlərini səsləndiriblər.

Yazıçılar Birliyi yanında "Luç" Ədəbi-Yaradıcılıq Birliyinin gənc üzvləri Aynel Aydayeva, Bəxtiyar Cəfərov, Leyla Qurbanova, Səidə Sübhi öz şeirlərini oxuyublar.

# Azərbaycanlı rejissorun layihəsi Kann festivalında

Kann film festivalının "L'atelier" proqramına seçilən 15 kinolayihənin adı açıqlanıb. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasından verilən məlumata görə, festivalın tarixində ilk dəfə olaraq bu siyahıda azərbaycanlı rejissor Elvin Adıgözəlin "Yaşar" kinolayihəsi də yer alıb. "Yaşar" rejissorun üçüncü tammetrajlı film layihəsidir.

Qeyd edək ki, "L'atelier" proqramı Kann beynəlxalq kinofestivalının tərkibində 2005-ci ildə bu sahədə yeni nəsil yaradıcı insanların üzə çıxarılması məqsədilə təsis olunub. Proqrama seçilən layihələr Kann film festivalı üçün xüsusi əhəmiyyət daşıyır.

"Çəkilməmiş film üçün bu proqramda yer almaq ən yüksək beynəlxalq hədəfdir", - deyə "Yaşar" kinolayihəsinin prodüseri Teymur Hacıyev bildirib.

# Gənc ifaçının konserti

Martın 9-da "YARAT" Müasir İncəsənət Mərkəzində gənc ifaçı Ləman Dadaşova konsert proqramı ilə çıxış edəcək. Konsert zamanı klassik mahnıların, həmçinin caz və pop üslubunda məşhur xarici mahnıların kaver versiyaları ifa olunacaq.

Qeyd edək ki, müxtəlif musiqi janrlarında mahnılar ifa edən, çox nadir kontralto səs tembrinə malik gənc müğənni 2016-cı ildə "Səs" (Azərbaycan) televiziya layihəsinin yarımfinalçısıdır.

# Zəfər nəğmələri yazmağa çağıran bəstəkar

## Əməkdar incəsənət xadimi Tahir Əkbər vəfat edib

**“Arzum budur ki, yaşım yazacağım əsərlərlə ölçülsün. Həm də mən istəməzdim ki, əsərlərim mənimlə birgə qocalsın. Onların daim cavan qalmasını istəyirəm” deyən tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Tahir Əkbər martın 2-də dünyadan köçdü. Soyuq qış günündə dünyaya gələn bəstəkar baharın ılıq nəfəsinin duyulduğu bir vaxtda həyata əbədi əlvida dedi...**

Tahir Əkbər həyatının bir hissəsini qürbətdə yaşamasına baxmayaraq, bütün yaradıcılığı boyu Azərbaycan xalq musiqisindən bəhrələnərək onu əsərlərində qabarıq şəkildə təcəssüm etdirən bəstəkarlardan idi. “Mən mahnını quşa bənzədirəm. Onun bir qanadı bəstəkar, bir qanadı şairdir. Amma bu quşu göylərə qaldıran, ona ruh verən müğənnidir. Üçü də mükəmməl olanda musiqi də mükəmməl olur”, - bu fikirlər də ona məxsus idi. Cismani bizlərdən ayrılsa da, sevilən nəğmələri ilə qəlblərdə yaşayacaq.

Tahir İsmayıl oğlu Əkbərov (Tahir Əkbər) 1946-cı il yanvarın 20-də Bakıda doğulub. 1960-1965-ci illərdə o vaxtkı Dzerjinski adına Mədəniyyət sarayının nəzdində fəaliyyət göstərən Musiqi məktəbinin fortepiano şöbəsində oxuyub.

Həyatının müəyyən bir dövrü Özbəkistanla bağlı olduğu üçün 1965-1969-cu illərdə Həmzə Həkimzadə Niyazi adına Daşkənd Musiqi Texnikumunda təhsil alıb. Musiqişünas kimi təhsilini başa vurduqdan sonra Muxtar Əşrəfi adına Daşkənd Dövlət Konservatoriyasının Bəstəkarlıq şöbəsinə qəbul olunub.

Tahir Əkbər Üzeyir Hacıbəylinin yetirməsi, tanınmış bəstəkar, professor Boris Zeydmanın sonuncu azərbaycanlı tələbəsi olub. 1985-ci ildə keçmiş SSRİ Bəstəkarlar İttifaqının, daha sonra isə Azərbaycan Bəstəkarlar İttifaqının üzvlüyünə qəbul edilib. 1980-ci ildə Bakıya qayıdan bəstəkar elə həmin ildən də Azərbaycan Dövlət Radio və Televiziyasında musiqi redaktoru vəzifəsində çalışmağa başlayır.



Onun yaradıcılığında mahnı janrı əsas yer tutur. Bəstələdiyi “Dərdin alım”, “Heç küsməyin yeridirmi?”, “Azərbaycan”, “Əzizim”, “Heyfim gəldi”, “Qalardım”, “Bir qız bir oğlanındır”, “Xəzəllərin rəqsi” və başqa mahnılar görkəmli ifaçılarımız Şövkət Ələkbərova, Mirzə Babayev, Zeynəb Xanlarova, Məmmədbağır Bağırzadə və digər müğənnilər tərəfindən uğurla ifa olunub. Bu mahnılar efir və ekranda daim səslənərək dinləyicilərin rəğbətini qazanıb. Çoxları onun musiqilərini xalq mahnıları kimi tanıyıb. Əslində, bu da bəstəkarın böyüklüyüdür. Bəstələdiyi mahnılar xalq dilinə, xalq ruhuna o qədər yaxın olub ki, o mahnılar xalq mahnıları qədər sevilib.

Tahir Əkbərin adı həm də Azərbaycan professional musiqisində yeni janrların yaradılması ilə bağlıdır. “Simfonik rənglər”, ilahiyyat mövzusunda yazdığı “Amin” əsəri və onun davamı kimi “Ya Rəbb” adlı vokal simfonik poeması onun musiqi sənətimizdə özünəməxsus yerinin göstəricisidir. Musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lətifəxanım Əliyeva yazır ki, Tahir Əkbər “Amin” əsəri ilə Ü.Hacıbəylinin ölməz “Leyli və Məcnun” operasında və F.Əmirovun “Şeyx Sənan” tamaşasına yazdığı musiqidə başladığı yolu davam etdirmişdi: “Hər iki əsərdə mərsiyə məhəbbət mövzusuna transformasiya edilərək dini musiqinin təsir gücünü qabarıq şəkildə büruzə verir”.

“Amin” mahnısından söz düşmüşkən onu da qeyd edək ki, mahnının yaranma tarixi 90-cı illərə təsadüf etdiyindən həmişə düşünürdüm ki, bu mahnı daha çox kədər və ağrı-acını simvolizə edir. Lakin son dövrlərdə bu mahının el şənliklərində “Vağzalı” ilə birgə səslənməsi hallarına tez-tez rast gəlirdim. Elə bu səbəbdən də görkəmli klarnet ifaçılarından soruşanda ki, “Amin” mahnısını niyə toy şənliklərində ifa edirsiniz, maraqlı cavab aldım. Bildirdilər ki, bu mahnı yeni qurulan ailələrə sanki xeyir-dua verir və “Vağzalı” ilə elə uyğunluq təşkil edir ki, bu günə kimi də heç kəs etirazını bildirməyib.

Bəli, Tahir Əkbər sənətinin bir möcüzəsi də bu idi. O, dini musiqiyə xas, lakin əhval-ruhiyyəli kompozisiya yarada bilmişdi. Yuxarıda adlarını qeyd etdiyimiz mahnıların hər biri insanın emosional hisslərini, müxtəlif yaşantılarını təcəssüm etdirir.

Onun yaradıcılığında xor musiqisinə, simfonik və kamera əsərlərinə də rast gəlirik. “Olan olar”, “Vokal və orkestr üçün kompozisiya”, “Azəri” (klarnet və instrumental ansambl üçün rəqs), “Yarat” (vokal, xor və orkestr üçün poema-kompozisiya), Dünya azərbaycanlılarının 2-ci qurultayı ərəfəsində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi xor və simfonik orkestr üçün “Həmrəylik“ himni və s. əsərlər bəstəkarın yaradıcılığının zənginliyindən soraq verir.

Bəstəkarlar İttifaqının katibi, professor Zemfira Qafarova musiqiçi haqqında danışarkən demişdi: “Tahir Əkbər Azərbaycan mədəniyyətinin çox sevilən simalarından biridir. Bundan əlavə, o, hamının sevimli bəstəkarıdır. O, musiqinin bir çox janrında əsərlər yazsa da, yaradıcılığının böyük hissəsini mahnılar və romanslar təşkil edir. Onun əsərləri milli dəyərlərə söykənir”. Həqiqətən də, bəstəkarın səmimi, vətənpərvərlik, məhəbbət üzərində köklənən mahnıları musiqi mədəniyyətimizi zənginləşdirib və xalq mahnılarımız kimi sevilib.

Tahir Əkbərin həm də Qarabağ döyüşlərinə, orada vuruşan hərbçilərimizə həsr olunan silsilə mahnıları var. Bu mahnıların hər biri bir zəfər nəğməsidir. Mahnı yaratmaq hər adama nəsib olmur. Özü də ölməz mahnılar. İnsanların ürəklərini oxuya bilən, onların qəlbinə toxunan mahnılar. Əgər biz o mahnıları daim zümzümə ediriksə, daim o mahnılar qulağımızda səslənirsə, deməli, qəlbimizə yol tapıb, deməli, sevilib Tahir Əkbər nəğmələri.

Sənətkar həyatdan köçsə də, yaratdığı mahnılar bizimlədir. Bu elə mahnılardır ki, hələ uzun illər oxunacaq. “Gəlin, hamımız zəfər mahnısı yazaq. Həmin mahnılar o torpaqlarda səslənsin. O gün üçün hamımız «İlahi, amin!» deyək”, - çağıran bəstəkarın ruhu şad olsun.

**Lalə Azəri**



# Musiqi məktəbinin kollektivi konsert proqramı ilə çıxış edib

Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbinin kollektivi konsert proqramı ilə çıxış edib.

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında reallaşan hesabat konsertini tanınmış mədəniyyət və incəsənət xadimləri də izləyiblər.

Konsertdə kollektivi Xalq artisti Fəxrəddin Kərimovun idarəsi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib. Məktəbin istedadlı şagirdlərinin ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

# Folklor qrupunun təqdimatı

Martın 2-də Biləsuvar rayon mərkəzindəki Heydər Əliyev adına parkda Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə Salyan rayon Mədəniyyət mərkəzinin ”Qaravəlli” folklor kollektivinin təqdimatı və ”Cəngi” xalq kollektivinin konserti təşkil edilib.





Regional idarənin rəisi Elçin Hüseynov tədbiri açaraq mədəniyyət işi sahəsində rayonlararası mübadilədən danışıb və bu prosesin gələcəkdə daha da inkişaf etdiriləcəyini bildirib. Qeyd edilib ki, keçirilən belə tədbirlər ümumi işimizə köməkdir.

Folklor kollektivinin təqdimatı və konsert proqramı sakinlər tərəfindən böyük maraqla qarşılanıb.




# Alman rəssamın işıq instalyasiyası nümayiş olunacaq

Martın 10-da “Kapellhaus” Alman-Azərbaycan Mədəniyyət Birliyində tanınmış alman rəssamı Mişa Kubalın “Space-Speech Speed” işıq instalyasiyası nümayiş olunacaq. Sərgi aprelin 8-dək davam edəcək.

İncəsənətlə 40 ildən bəri məşğul olan rəssam işıq effektlərindən geniş şəkildə istifadə edir və onu şəhər strukturunda fəaliyyət göstərən səmərəli vasitə kimi təsvir edir. Rəssamın müdaxiləri əvvəlcədən gözə dəyməyən detalları daha qabarıq şəkildə önə çəkən, adi halı qeyri-adi hala çevirən və məkanın tanınmaz dərəcədə dəyişməsini təmin edən işıq və qaranlığın güclü istifadəsi ilə seçilir.

“Space-Speech-Speed” işıq instalyasiyası səssizlikdə nümayiş olunur. Bir ay ərzində “Kapellhaus”un əsas salonu insana düşünmək və istirahət imkanı yaradan heyranedici işıq instalyasiyasına meydan verəcək.

# Moldovadan gələn söz çələngi

**Ötən həftə paytaxtın mədəni həyatı bir zamanlar qırılmış ədəbi əlaqələrin bərpasına yönəlmiş təşəbbüsün reallaşması ilə əlamətdar oldu. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi və Moldova Azərbaycanlıları Konqresinin dəstəyi ilə martın 1-dən 3-dək davam edən Moldova ədəbiyyatı günləri maraqlı görüşlərlə yadda qaldı.**




Moldova Yazıçılar İttifaqının sədri Arkadi Suçevyanunun da yer aldığı heyətin ilk rəsmi görüşü Mədəniyyət və Turizm Nazirliyində keçirildikdən sonra qonaqlar Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda görüşə toplaşdılar.

Görüşdə AYB-nin sədri, Xalq yazıçısı Anar Azərbaycan ilə Moldova arasında ədəbi əlaqələrdən danışdı, ədəbiyyat günlərinin təşkilinə dəstək göstərdiyinə görə Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzova AYB-nin fəxri üzvlük vəsiqəsini təqdim etdi.

Moldovanın ölkəmizdəki səfiri George Leuka, Moldova Yazıçılar İttifaqının sədri Arkadi Suçevyanu və digər çıxış edənlər bu cür tədbirlərin əhəmiyyətindən söz açdılar, iki ölkənin ədəbiyyat nümunələrinin qarşılıqlı olaraq tərcüməsinin mədəni əlaqələrin möhkəmlənməsinə xidmət etdiyi vurğulandı.

Martın 1-də axşam, Milli İncəsənət Muzeyində tanınmış şair Arkadi Suçevyanu, Nikolae Spetaru, Leo Butnaru və başqa şairlərin şeirlərinin yer aldığı "Qağayı ilə göndərilən məktub" poeziya toplusunun təqdimatı keçirildi.

Martın 2-də Bakının tarixi və görməli məkanları ilə tanış olan, Mertsişor milli bahar bayramını səfərdə qeyd edən qonaqlarla bir də ayın 3-də Milli Kitabxanada görüşdük. Həmin gün məşhur yazıçı İqor Volnitskinin Azərbaycan dilinə tərcümə edilmiş "Mənə ölməyi öyrət" romanının təqdimatı və imza günü baş tutdu.




Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq, Bakıda Moldova ədəbiyyatı günlərinin keçirilməsini hər iki ölkənin mədəni həyatında əhəmiyyətli hadisə kimi dəyərləndirdi. Moldovadakı diaspor təşkilatımızın başçısı Vüqar Novruzov da Sovet İttifaqı dağılandan bəri bir-birinin mədəni həyatından aralı qalmış, həm də Qarabağ və Dnestryanı hadisələri üzündən oxşar tale yaşayan Azərbaycan və Moldova arasında münasibətlərin bərpasına ehtiyacın olduğunu söylədi. Öyrəndik ki, təqdim edilən "Mənə ölməyi öyrət" romanı əvvəlcə rus dilinə, sonradan da Azərbaycan dilinə məhz Moldova Azərbaycanlıları Konqresinin dəstəyi ilə çevrilib. Yaxın zamanlarda isə təşkilatın dəstəyi ilə Moldovada Azərbaycan ədəbiyyatı günləri keçiriləcək, bizim ədiblərin əsərlərinin rumın dilinə tərcüməsi davam edəcək.

Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, şair Səlim Babullaoğlu təqdim olunan kitab barədə söz açaraq söylədi ki, roman postsovet məkanı ölkələrinin xalqları üçün maraqlıdır. Ömrünü imperiya maraqlarını qorumağa həsr etmiş, bütün doğmaları baş qəhrəmanın qol qoyduğu fəlakətlərin acısını çəkən bir qocanın taleyindən bəhs edən romanı Azərbaycan dilinə Azad Yaşar çevirib, kitabın redaktoru Seyfəddin Hüseynlidir.

Tədbirdə Moldovanın səfiri George Leuka, Arkadi Suçevyanu, AYB-nin katibi Rəşad Məcid çıxış etdilər. Artıq romanla tanış olmağa imkan tapmış tədbir iştirakçıları isə müəllif İqor Volnitskiyə əsərlə bağlı suallarını ünvanlayıb, təəssüratlarını bölüşdülər.

**G.Mirməmməd**

## Bakı Xoreoqrafiya Akademiyası Türkiyə ilə əlaqələri genişləndirir

Bakı Xoreoqrafiya Akademiyasının (BXA) rektoru, Əməkdar elm xadimi, professor Timuçin Əfəndiyev Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və tanıtım müşaviri İrfan Çiftçi ilə görüşüb. Görüşdə BXA-nın Türkiyənin dövlət və özəl sənət ali təhsil müəssisələri ilə əməkdaşlıq münasibətlərinin qurulması, tələbə mübadiləsi və diplomların qarşılıqlı tanınması məsələləri müzakirə olunub.



Professor Timuçin Əfəndiyev akademiyanın fəaliyyətindən, uğurlarından, tədris prosesi, yaradıcılıq işləri və beynəlxalq əlaqələrindən söz açıb, müxtəlif ölkələrin incəsənət təmayüllü ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrinin bağlandığını, Bakı Xoreoqrafiya Akademiyasının Avropa İncəsənət Universitetləri Liqasının üzvü seçildiyini diqqətə çatdırıb.

Rektor qardaş Türkiyənin sənət ali təhsil müəssisələrinin Bakı Xoreoqrafiya Akademiyası tərəfindən Bakıda 25-27 iyun tarixində keçiriləcək Qəmər Almaszadə adına II Beynəlxalq Rəqs Müsabiqəsində yüksək səviyyədə təmsil olunacağına əminliyini bildirib. İrfan Çiftçi də öz növbəsində BXA ilə əməkdaşlıqda maraqlı olduqlarını və müsabiqədə Türkiyənin yaxından iştirakı üçün səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, birgə sənət layihələrinin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

# Bərdə türbəsində təmir-bərpa işləri başa çatıb

**Xəbər verdiyimiz kimi, Orta əsrlər Azərbaycan memarlığının qiymətli abidələrindən olan Bərdə türbəsində təmir-bərpa işləri aparılıb. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi əsasında "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunun layihəsi əsasında həyata keçirilən bərpa prosesi tamamlanıb.**



Dövlət xidmətindən verilən məlumata görə, prosesə ölkəmizin bərpaçıları, həmçinin İranın Ərdəbil şəhərindən dəvət olunmuş mütəxəssislər cəlb edilib.

Abidənin bərpası ilə yanaşı ərazidə də abadlıq işləri aparılıb. Türbənin betondan quraşdırılmış qəzalı günbəzi abidəyə zərər vurulmadan sökülüb, layihəyə uyğun olaraq kərpiclə hörülüb, kərpiclərin üzərinə kaşı vurulub. Abidənin sadə və mürəkkəb formalı kaşı elementləri, kaşılararası tikişlər təmizlənərək bərpa olunub, sərdabə hissəsi köhnə suvaqdan təmizlənərək kaşı elementləri əlavə edilib. Həmçinin türbənin ətrafında yerləşən Torpaqqalada da bərpa-konservasiya işləri görülüb.

Qeyd edək ki, 1322-ci ildə inşa edilən türbənin üzərindəki əski əlifba ilə həkk olunmuş yazılar sovet dövründə dağıdılaraq yararsız hala salınmışdı. 1957-1958-ci illərdə aparılan təmir işləri zamanı erməni əsilli layihəçi, mühəndis və bərpaçılar tərəfindən türbənin günbəzinə betondan tonlarla çəkisi olan konussəkilli qüllə inşa edilmiş, ağır beton abidənin tarixi görkəmini dəyişməklə yanaşı, türbənin sol tərəfə maillənməsinə səbəb olmuşdu.

Türbənin kürsülüyü daşdan, gövdəsi silindrik şəkildə bişmiş kərpicdən hörülüb, damı günbəz şəklindədir. Türbənin divarları adi və üzərinə firuzəyi rəngli kaşı çəkilmiş kərpiclərlə üzlənib. Adi qırmızı kərpiclər üfüqi, kaşılanmış kərpiclər isə şaquli vəziyyətdə düzülüb. Bu cür orijinal hörgünün kərpiclə düzülmüş naxışlarında bütün gövdə boyu çoxlu sayda "Allah" sözü yazılıb. Bu səbəbdən Bərdə türbəsinə xalq arasında "Allah-Allah türbəsi" də deyilir.

Sovet dövründə türbə üzərindəki əski əlifba ilə həkk olunmuş yazılar dağıdıldığından onun kimin şərəfinə ucaldıldığı məlum deyil. Türbənin üzərində qalan yazı onun naxçıvanlı memar Əhməd Əyyub oğlu tərəfindən inşa olunduğunu göstərir.

## Bədii qiraət müsabiqəsinin dinləmələri

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən elan olunan "Nəsimi poeziyası" bədii qiraət müsabiqəsinin bölgələrdə ilk turunun seçimləri davam edir.



Şirvan şəhər Mərkəzi kitabxanasında keçirilən dinləmələrdə şəhər məktəblərindən 35 şagird iştirak edib. Münsiflərin qərarı ilə yeddi nəfər 1-3-cü yerləri tutaraq növbəti mərhələyə keçib. Bu mərhələdə bir qalib seçilərək regional idarə üzrə yarışmaya qatılacaq.

* * *

Bərdə rayon Səməd Vurğun adına Mərkəzi kitabxanada da "Nəsimi poeziyası" bədii qiraət müsabiqəsinin ilk turunun dinləmələri keçirilib. 18 nəfərin iştirak etdiyi yarışmada üç nəfər növbəti dinləmə mərhələsinə keçib.

Müsabiqə regional idarənin əhatə etdiyi Mingəçevir, Yevlax şəhər, Tərtər rayon nümayəndəliklərində də təşkil edilib.

Qeyd edək ki, bədii qiraət müsabiqəsinin hər şəhər (rayon) MKS üzrə seçimlərində bir nəfər qalib müəyyənləşməlidir. Onlar aprel ayı ərzində Bakı şəhəri və 15 regional idarə üzrə təşkil olunacaq növbəti turda iştirak edəcəklər.




## "Ələddin" uşaq müziklinin premyerası

Aprelin 15-də Heydər Əliyev Sarayında "Ələddin" uşaq müziklinin premyerası olacaq.

Azərbaycanda ilk uşaq müziklinə Əməkdar artist İnarə Babayeva quruluş verib. Rollarda populyar estrada ifaçıları Zamiq Hüseynov, Sevda Yəhyayeva, Emiliya Yaqubova, Əməkdar artist Ələkbər Əliyev, başqa tanınmış aktyor və müğənnilər çıxış edəcəklər.

Şərq koloriti, ritmik rəqslər, yumor, maraqlı dekorasiyalar, rəngarəng musiqi təkcə balacaların deyil, böyüklərin də ürəyincə olacaq.

## Aktyorluq sənətinin inkişaf tendensiyalarından söhbət açılıb

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 10 mart - Milli teatr gününə həsr olunmuş "Teatr tarixində aktyor sənətinin inkişaf tendensiyaları" mövzusunda tələbə elmi konfransı keçirilib.

ADMİU-nun prorektoru, professor Məryəm Əlizadə çıxış edərək Teatrşünaslıq kafedrası tərəfindən təşkil olunan konfransın mühüm elmi-nəzəri mövzunu əhatə etdiyini söyləyib. Bildirilib ki, konfrans teatr sahəsində aktyor sənətinin inkişaf tendensiyalarını təhlil etməklə yanaşı, tələbələrdə araşdırma vərdişlərini formalaşdırmaq, onların tədqiqatçılıq səriştələrini artırmaq məqsədini qarşıya qoyub.

Tələbələrin "Orta əsrlərdə dini tamaşalar: janr təsnifatı", "Şərq ənənəvi teatr mədəniyyətində aktyor sənəti", "Postdramatik teatrda aktyor sənəti" və digər mövzularda məruzələri dinlənilib.

# "Baharı birlikdə qarşılayaq"

### Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri əl işlərini təqdim etdilər

**Martın 3-də Bakıdakı Xətai Sənət Mərkəzində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin istedadlı şagirdlərinin əl işlərindən ibarət "Baharı birlikdə qarşılayaq" adlı sərginin açılış mərasimi keçirildi.**




Tədbirdə məktəbin direktoru Əziz Qarayusifli çıxış edərək son illər tədris ocağının qazandığı uğurlardan bəhs etdi. Direktor sərginin əhəmiyyətindən danışaraq qeyd etdi ki, bu layihənin ərsəyə gəlməsində məktəbin müəllimləsi Nigar Şıxəliyevanın böyük zəhməti var.

Bildirildi ki, sərgidə 30-dək şagirdin müxtəlif mövzularda 70-ə yaxın rəsm





əsəri yer alıb. Əsərlərdə əsas yeri bahar mövzusu tutur.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış oldular. Tədbir bədii kompozisiya ilə davam etdi. Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi şagirdlərinin ifasında musiqilər səsləndirildi, rəqslər nümayiş olundu.

Sonda sərgi iştirakçılarına diplom və hədiyyələr təqdim edildi.

**Fariz Hüseynov**

# "Beynəlxalq mədəniyyət günü"ndə ölkəmizin stendi maraq doğurub



Abu-Dabidəki ən çoxmillətli məktəb olan "Gems American Academy" təhsil kompleksində keçirilmiş "Beynəlxalq mədəniyyət günü" tədbirində Azərbaycan stendi də qurulub.

Ölkəmizin Birləşmiş Ərəb Əmirliklərindəki səfirinin xanımı Ülviyyə Şikarova və Azərbaycan icması tərəfindən birgə təşkil edilmiş stenddə respublikamızın mədəniyyət və turizm imkanlarına dair materiallar, suvenirlər, Azərbaycan kəlağayısı nümayiş olunub və tədbir iştirakçılarına paylanılıb. Həmçinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi, işğal nəticəsində ölkəmizin təbiətinə və mədəniyyətinə vurulan zərər, tarixi abidələrin dağıdılması barədə məlumatları əks etdirən lövhə quraşdırılıb.

Azərbaycan stendi tədbir iştirakçılarının marağına səbəb olub. Ziyarətçilərə milli kulinariyamızın dolma, aş, qutab, şəkərbura, paxlava, şəkərçörəyi kimi nümunələri, təbii meyvə şirələri təqdim edilib.




# "Rəqəmlərin sirli dünyası"



**Bakıdakı "Ağ Şəhər" qalereyasında istedadlı rəssam, Gürcüstanda yaşayan soydaşımız Rizvan İsmayılın "Rəqəmlərin sirli dünyası" adlı fərdi sərgisi keçirilib.**

Sərginin açılışında Əməkdar rəssam, UNESCO yanında Beynəlxalq Rəssamlar Federasiyasının üzvü Sakit Məmmədov, millət vəkili, Azərbaycan-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri, Mətbuat Şurasının sədri Əflatun Amaşov və digər çıxış edənlər Rizvan İsmayılın yaradıcılığı haqqında söz açıb. Qeyd olunub ki, rəssamın İstanbulda, Tbilisidə, Parisdə, Moskvada fərdi sərgiləri keçirilib.

Qeyd edək ki, martın 1-dən 6-dək davam edən sərgidə tamaşaçılar rəssamın nimerologizm (əbcədizm) üslubunda çəkdiyi əsərlərlə də tanış olmaq imkanı qazanıblar.

Gürcüstanın Bolnisi rayonundan olan Rizvan İsmayıl 1986-1990-cı illərdə Bakıdakı Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil alıb. Eyni zamanda tanınmış ilahiyyatçıdır. Gürcüstan Rəssamlar Federasiyasının ilk azərbaycanlı üzvüdür. 2015-ci ildə Tbilisidə "Rəssam rənglərlə şeir yazan bəstəkardır" adlı kataloqu nəşr olunub.

Bu, rəssamın Bakıda ikinci sərgisidir. Rəssam ötən ilin martında "1969" qalereyasında sənətsevərlərlə görüşmüşdü.

**Martın 7-də Almaniyanın paytaxtı Berlin şəhərində “İTB Berlin 2018” beynəlxalq turizm sərgisi işə başlayır. Martın 11-dək davam edəcək tədbirdə mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edir.**

THE WORLD’S LEADING TRAVEL TRADE SHOW®
8–12 MARCH 2018
ITB BERLIN

# Ölkəmiz Berlində turizm sərgisində təmsil olunur

## Yunanıstanda isə Lüsern Dünya Turizm Forumunun “Beyin mərkəzi” toplanıb




Dünyanın ən böyük turizm sərgilərindən hesab olunan “İTB Berlin”in pavilyon və stendləri “Messe Berlin” kompleksində 160 min kvadratmetr sahədə nümayiş olunur. Ölkəmiz bu sərgidə 2004-cü ildən təmsil olunur. Bu il “İTB Berlin”ə 180-dək ölkə qatılıb.

Berlindəki sərgi öncəsi turizm dünyasının diqqətini çəkən daha bir tədbir Yunanıstanda keçirilib. 2-3 mart tarixində burada Lüsern Dünya Turizm Forumunun “Beyin mərkəzi”nin (Think Tank) növbəti toplantısı olub. Toplantıda Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov iştirak edib.

Səyahət, turizm və qonaqpərvərlik sənayesinin ”Davos Forumu” sayılan Lüsern Dünya Turizm Forumunun toplantısına Birləşmiş Millətlər Dünya Turizm Təşkilatının keçmiş baş katibi Taleb Rifai, Yunanıstanın turizm naziri Yelena Kontura, bir sıra digər ölkələrin turizm nazirləri, beynəlxalq təşkilatların rəhbərləri və turizm üzrə tanınmış ekspertlər qatılıblar.

Toplantı zamanı nazir müavini Nazim Səmədov çıxış edib, həmçinin bir sıra görüşlərdə iştirak edib. Toplantının əsas mövzusu davamlı turizmin inkişafı naminə dövlət-özəl sektor əməkdaşlığı olub.

# Turizm və rekreasiya zonalarının yaradılması üzrə işlər davam edir

Turizm xidməti infrastrukturunun və turizm növlərinin davamlı inkişafı, turizm ehtiyatlarının səmərəli istifadə olunması, mövsümiliyin azalması, bölgədə turizm günlərinin sayının artırılması, yerli səviyyədə effektiv idarəetmənin təşkili istiqamətində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

Mədəniyyət və Turizm Nazirliyinin Ekologiya və Təbii Sərvətlər, Ədliyyə nazirlikləri və Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırılmış təklifi nəzərə alınaraq Nazirlər Kabineti 2016-cı ildə “Xızı-Xaçmaz, Quba, Qusar turizm və rekreasiya zonalarının yaradılması haqqında” qərar qəbul edib. Qərara əsasən, Xızı rayonunun 7969,22 hektar, Siyəzən rayonunun 14365,44 hektar, Şabran rayonunun 25833,78 hektar, Xaçmaz rayonunun 33832,40 hektar inzibati ərazilərində Xızı-Xaçmaz, Quba rayonunun 3729,43 hektar inzibati ərazisində Quba turizm və rekreasiya zonası, Qusar rayonunun 14546,55 hektar inzibati ərazisində isə Qusar turizm və rekreasiya zonası yaradılıb.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən “Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının 2017-2018-ci illər üzrə Fəaliyyət planı” hazırlanıb və Nazirlər Kabinetinin 4 may 2017-ci il tarixli sərəncamı ilə təsdiq olunub. Fəaliyyət planına uyğun olaraq yerli icra hakimiyyəti, aidiyyəti dövlət qurumlarının yerli nümayəndələri və özəl sektorun təmsilçiliyi ilə turizm və rekreasiya zonalarının idarəetmə şuraları yaradılıb.

Biznes mühitinin yaxşılaşdırılması, yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, sənaye istehsalının artırılması məqsədilə ölkə Prezidentinin müvafiq fərmanına uyğun olaraq investisiya təşviqi mexanizmi yaradılıb. İnvestisiya təşviqi sənədi 7 il müddətinə gəlir və mənfəət vergisindən 50 faiz, əmlak və torpaq vergisindən, müvafiq avadanlıqların idxalının gömrük rüsumlarından və ƏDV-dən azad olunmasına imkan verir. Bu isə turizm infrastrukturunun qurulmasında sahibkarlara əlavə stimul yaradır.

Quba, Qusar və Xızı-Xaçmaz turizm və rekreasiya zonalarının Baş inkişaf planının hazırlanması məqsədilə keçirilmiş müsabiqədə qalib olmuş şirkətlərlə müqavilə imzalanıb. Baş inkişaf planlarında zonaların inkişaf strategiyaları, infrastrukturun qurulması, investisiyaların cəlb olunması, turizm klasterlərinin yaradılması ilə bağlı məsələlər yer alacaq. Sonrakı mərhələdə inkişaf planlarının icrası üçün illik planlar tərtib olunacaq.

**Fariz**

**Vyana şəhərində Azərbaycan ilə Avstriya arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq komissiyanın 9-cu iclası keçirilib.**

# İşğal edilmiş ərazilərə səfərlərin qarşısı alınacaq



Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Avstriyanın iqtisadiyyat və rəqəmsallaşdırma üzrə federal nazirinin müavini Matias Çirfin iştirak etdiyi iclasda ikitərəfli iqtisadi əlaqələr, qarşılıqlı olaraq investisiyaların cəlb olunması, müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Bu ilin may ayında Bakıda iki ölkənin özəl sektor nümayəndələrinin iştirakı ilə biznes-forumun təşkil olunması qərara alınıb.

Həmçinin, iclas çərçivəsində Bakı şəhərinin Dünya Sərgisinə (EXPO 2025) ev sahibliyi üçün namizədliyi ilə bağlı təqdimat keçirilib.

Sonda imzalanan protokolda iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər əksini tapıb. Sənədə əsasən, iki ölkə arasında əlaqələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn fundamental norma və prinsipləri əsasında qurulması, fiziki və hüquqi şəxslərin bu norma və prinsiplərə əsaslanmaqla fəaliyyət göstərməsi təmin ediləcək.

Azərbaycan tərəfinin xahişi ilə Avstriya turizm şirkətlərinin işğal edilmiş ərazilərə qeyri-qanuni səfərlər təşkil etməsinin qarşısının alınması məsələsi də protokolla təsbit edilib.



# Birgə reyslər qarşılıqlı turist axınını gücləndirəcək

Martın 2-də Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin milli aviadaşıyıcıları - AZAL və “Etihad Airways” arasında əldə olunan razılaşmaya əsasən Bakı ilə Abu-Dabi arasında birbaşa aviareys açılıb. Uçuşlar hər həftə - çərşənbə, cümə və şənbə günləri “Airbus A320” təyyarəsi ilə yerinə yetiriləcək.

İlk reyslə Heydər Əliyev Beynəlxalq Aeroportuna enən təyyarə ənənəvi ”su arkası” ilə qarşılanıb, pilot kabinəsindən Azərbaycan və BƏƏ-nin bayraqları dalğalandırılıb.

AZAL QSC-nin prezidenti Cahangir Əsgərov və aviareyslə Bakıya gələn “Etihad Airways” aviaşirkətinin baş icraçı direktoru Piter Baumqartnerin görüşü keçirilib. Görüşdə bildirilib ki, AZAL və “Etihad Airways” mülki aviasiya sahəsində köhnə tərəfdaşlardır. Birgə reyslərin açılması isə Azərbaycan vətəndaşlarına uçuşların coğrafiyasını daha da genişləndirməyə imkan verəcək, əlavə turist axını cəlb edəcək və işgüzar səfərlər üçün daha çox imkanlar yaradacaq.

# MDB məkanında mədəniyyət və turizm əməkdaşlığı

Sankt-Peterburqda Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) iqamətgahında qurumun Mədəniyyət, informasiya, turizm və idman məsələləri üzrə daimi komissiyasının növbəti iclası keçirilib.

İclasın gündəliyindəki məsələlərdən biri komissiyanın sədr müavininin seçilməsi olub. Azərbaycan Milli Məclisinin deputatı Elmira Axundova üçüncü dəfə bu vəzifəyə seçilib.

Azərbaycanlı deputat üç model qanun - “Şəxsi məlumatlar haqqında”, “Sosial turizm haqqında”, “Elektron notariatı sahəsində transsərhəd əməkdaşlığı haqqında” layihələrə dair öz təklif və mülahizələrini irəli sürüb.

İclasda, həmçinin “MDB iştirakçısı ölkələrin mədəni irsi haqqında” qanunun konsepsiya layihəsinə dair məsələyə baxılıb.

# Türkdilli xalqların mədəniyyətlərinin təbliği naminə birgə fəaliyyət

**Martın 2-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Türkiyə Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) Türkiyə-Azərbaycan Biznes Şurasının sədri Selçuk Akat ilə görüşüb.**



Fonddan bildirilib ki, görüşdə Günay Əfəndiyeva rəhbərlik etdiyi təşkilatın türkdilli xalqların tarixinin, mədəniyyətinin mühafizəsi, təşviqi istiqamətində fəaliyyətindən bəhs edib. Həmçinin Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun həyata keçirdiyi layihələrdən, xarici ölkələrdə təşkil etdiyi tədbirlərdən söz açılıb.

S.Akat Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun türkdilli xalqların mədəniyyətlərinin mühafizəsi və təbliği istiqamətində gördüyü işlərdən məlumatlı olduğunu və bu səyləri yüksək qiymətləndirdiyini qeyd edib. O, Türkiyə-Azərbaycan Biznes Şurasının Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə uğurlu əməkdaşlığına inamını ifadə edib.

Görüşdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb, həyata keçiriləcək birgə layihələr müzakirə olunub.

## Özbək ədəbiyyatının tədqiqatçıları təltif edilib

Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti Azərbaycanda özbək ədəbiyyatının tədqiqatçılarını iki xalq arasında dostluq münasibətlərinin, mədəni-ədəbi əlaqələrin möhkəmlənməsi sahəsində mühüm xidmətlərinə görə fəxri diplomlarla təltif edib.

Cəmiyyətin sədri, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru, professor Şavkat Şaripovun imzası ilə təqdim olunan diplomlara Bakı Dövlət Universitetinin professoru, tərcüməçi Ramiz Əskər, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Almaz Ülvi Binnətova, institutun əməkdaşları Yaşar Qasımov, Akif Bağırov, İsmixan Osmanlı, eləcə də filologiya elmləri doktoru, professor Elman Quliyev, Bakı Avrasiya Universitetinin dosenti Elmira Məmmədova, filologiya üzrə fəlsəfə doktoru Təranə Həşimova, dosent, ədəbiyyatşünas Səadət Şıxıyeva layiq görülüblər.

Mükafatlandırma Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə həyata keçirilib.

Xatırladaq ki, Azərbaycan tərəfi də ötən ilin dekabr ayında Özbəkistanda Azərbaycan ədəbiyyatının fəal tədqiqatçılarını mükafatlandırıb. AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin imzaladığı fəxri fərmanlarla tanınmış özbək ədəbiyyatşünasları, tərcüməçilər təltif ediliblər.

## Bayram Hacızadə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilib

Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri Bayram Hacızadə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilib.

Karikaturaçı Rəssamlar Birliyindən verilən məlumata görə, bu münasibətlə keçirilən təqdimatda Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli, akademiyanın rəyasət heyətinin üzvləri Tahir Salahov, İqor Smirnov, Surikov adına Moskva Dövlət Akademik Rəssamlıq İnstitutunun rektoru Aleksandr Lyubavin Bayram Hacızadənin karikatura sənətinin inkişafı və təbliğində xidmətlərini yüksək qiymətləndiriblər. Yaxın aylarda B.Hacızadənin Rusiya Rəssamlıq Akademiyasında sərgisi keçiriləcək.

# Kaş bu nağıl bitməyəydi...

**Bir var danışılan nağıllar, bir də var yaşanan nağıllar. Danışılan nağıl nümunəsi kimi dünya hələ gözəl və ağıllı Şəhrizadın ta min bir gecə danışdığından maraqlısını eşitməyib. O ki qaldı yaşanan nağıla, bu məsələ bir qədər başqa cürdür. Çünki həyatında nağılı bir, ya da ən çoxu iki-üç gecə yaşaya bilərsən ki, o da sənə ömür boyu bəs edər. Bu da kiməsə qismət ola, olmaya...**



Bizə də belə bir nağıl ilə yaşamaq qismət oldu. Yəni səhnədə nağıl oynandı, biz də tamaşa etdik. Söhbət ”M.Teatr”ın Rövşən Ağayevin ”Bir gecənin nağılı” pyesi əsasında hazırladığı eyniadlı tamaşadan gedir. Səhnə əsərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Tədris teatrında izlədik.

...Axşamdan xeyli keçib, əl-ayağın yığışdığı parkda göyçək bir qız xeyla-ğı təkcə oturub. Qorxsa da, oturub. Çünki evdən qaçıb. Yəni əslində evdə onun üçün hazırlanmış gələcək yaşam ssenarisindən qorxduğu üçün qaçıb. Çünki möcüzələrə inanan Qız üçün bir gecəni parkda dirigözlü açmaq öz seçimi olmayan, şəkildən tanıdığı, sevə bilməyəcəyinə qəti əmin olduğu kəslə ömrü boyu eyni həyat paylaşmaqdan dəhşətli ola bilməz. Həm də özünə söz verib ki, bu gecə qarşısına kim birinci çıxsa, elə ona da... ərə gedəcək! Absurd yanaşmadır? Bəlkə də... Axı, kim zəmanət verə bilər ki, valideynlərin seçdiyi o biznesmen oğlan gecə ilə parkda qarşına çıxan ”qismət”dən pisdi? Heç kim! Amma bu ”qismət”in bir üstünlüyü ola bilər: həyat mənimkidir, həyatımın yoldaşını da mən seçərəm! Bütün yanlışlığı, bütün məntiqsizliyi ilə bu seçim məsuliyyəti də özümündür: necə deyərlər, özü yıxılan ağlamaz!..

Amma, atalar demişkən, Qızın anası namaz üstdə imiş. Çünki qarşısına səfil, əyyaş, yaxud, oğru, çirkin, qoca, lap elə evli birisi yox, yaraşıqlı, subay, cavan, oxumuş, mədəni bir Oğlan çıxır. Düzdür, onun da naqis cəhətləri yox deyil. Amma nə olsun? Qadın böyük qüvvədir! İstəsə, digər qadının - ananın öz övladına yazdığı ömür ssenarisini pozub təzədən yazar! İnanmırsınız? Axı, sözümüzün əvvəlində dedik ki, həyatda bəzən nağıl yaşaya bilirsən...

”M.Teatr” bu nağılı Əməkdar artist Vidadi Həsənovun quruluşunda elə təqdim etdi ki, özümüzü seyrçi yox, iştirakçı sandıq. İştirakçı demişkən, tamaşada teatrallardan daha çox teleserial izləyicilərinin yaxşı tanıdığı iki cavan aktyor - Günay Əhməd və Ziya Ağa iştirak edir.

Başa düşdüyünüz qədər tamaşanın iki personajı var: Qız və Oğlan. Əslində isə biz onların valideynlərini də görürük. Qızın dili ilə desək, övladlarını oyuncaq kimi böyüdüb onların taleyini öz istədikləri kimi yazmaq istəyən valideynləri. İlk baxışdan elə görünə bilər ki, Qız üçüncü nəsil alim ailəsində böyüyən, “ana uşağı” Oğlandan daha fərasətli, daha cəsurdur. Amma hadisələr inkişaf etdikcə məlum olur ki, elə Qız da ana quzusudur, ilk səhnələrdə Oğlana evlilik təklif etməsi, bir gənc qızla oğlanın gecə vaxtı parkda neyləyəcəyi barədə ”təlimat” verməsi hansısa əcnəbi filmdə gördüyünün sözdə təkrarından başqa bir şey deyil. Özünü çoxbilmiş kimi aparsa da, qadın-kişi münasibətində heç bir təcrübəsi yoxdu. Sadəcə, valideyn hikkəsi Qızı başı kitablara, mücərrəd elmi axtarışlara qarışmış Oğlandan daha erkən yaxalayıb. Bəs sonluq necədir? Elə bizim istədiyimiz kimi! Yəni səhnədəki Oğlanın da, Qızın da istədiyi kimi. Axı nağıl xoş sonluqla bitməlidir. Belə bitməsə, daha o, nağıl olmaz ki. Hər halda Qızın arzuladığı möcüzə baş verir. Bir neçə saatın içində tanıdığı Oğlan onun təsiri altında və Qızın başına gələn hadisənin onu da gözlədiyini anlayaraq ailə diktəsi buxovlarını qırır, qeyri-adi şəraitdə və vəziyyətdə tanış olduğu Qıza aşiq olur, hətta onunla evlənməyə qərar verir!.. Üstəlik, şimşək çaxıb yağış da yağır ki, Qız bu sevgiyə inansın! Beləcə, ulduzların şahidliyi ilə başlayan eşq hekayəsinə göylər leysanla xeyir-dua verir.



”M.Teatr”ın cəmi bir neçə dəfə oynanılmış bu tamaşasına həm teatr cameəsinin, həm də gənc sənət həvəslilərinin və bu həvəslilərin digər sahələrdə çalışan dostlarının marağı sevindirməyə bilməz. Əslində hər teatrın tamaşasında digər teatrların bu qədər aktyorunu görmək, onların təbrikini eşidib alqışına şahid olmaq da nadir hadisədir. Başqa bir məqam da bundan ibarətdir ki, lap son illərdə ”Bir gecənin nağılı” Bakıdakı iki teatrın repertuarında olub, amma bu qədər maraqla qarşılanmayıb...

Düzünü deyim ki, bu tamaşaya adı afişada yazılmış iki gənc aktyoru teatr səhnəsində görmək üçün baxdım. Çünki istedadlı gənclərin - Günay Əhmədin və Ziya Ağanın öz potensialını seriala çəkilməklə xərcləyib bitirməsi, gəldi-gedər populyarlığa arxayınlaşması təkcə onlar üçün deyil, teatr üçün də sənətçi itkisi olardı. Şükürlər ki, gənclər əsl sənət yolundadırlar.

Oxucu soruşa bilər ki, bəs sonra nə oldu? Park, iki cavan, yağış, nağıl arzusu... Bütün bunlar bir növ hind filmlərinin ssenarisinə oxşamır ki?.. Cavab veririk ki, yox, oxşamır... Əvvələn, o filmlərdə yağış əvvəldə yağır, oğlan da, qız da mahnı oxuyub rəqs edir, bir-iki kadrdan sonra da yağışın bərəkətindən bir övladları, özü də mütləq oğlan uşağı dünyaya gəlir və nağıl təzədən başlanır. Düzdür, bu tamaşada da Oğlanla Qız rəqs edirlər, özü də peşəkar səviyyədə, teatr səhnəsi üçün yetərincə akrobatik sayılacaq elementlərlə dolu rəqs. Mahnını isə fonda Miri Yusiflə Zülfiyyə Xanbabayeva oxuyur.

Biz isə nağılı öz həyatında yaşayan iki gənc qəhrəmanı sevə-sevə seyr edirik, həm də istəyirik ki, bu nağıl onların bu gecədən sonrakı həyatında da davam etsin...

Bir də ki nağılı seyr edib danışmağa nə var ki! Hünərin var, onu həyatda yaşa!

**Gülcahan Mirməmməd**

# Mühacirət dövründən bəhs edən kitablar təqdim olunub

**"Azərkitab" Kitab Təbliğatı Mərkəzində Azərbaycan mühacirət tarixinin tədqiqatçısı, publisist Dilqəm Əhmədin kitablarının imza günü keçirilib.**



"TEAS Press" nəşriyyat evinin çap etdiyi kitablarda müəllif Türkiyədə yaşadığı dövrdə Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid nadir fotolar, arxiv sənədləri toplayıb. O, mühacirlərin ailə üzvləri ilə əlaqə quraraq, onların şəxsi arxivlərində saxlanılan və bu günə kimi geniş ictimaiyyətə məlum olmayan sənədləri əldə edib. Dörd il ərzində toplanan materiallar "TEAS Press" tərəfindən "Fərqlilər" (2015) və "Mühacirlərin dönüşü" (2017) adı ilə nəşr olunub.

"Fərqlilər" kitabında mühacirlərlə yanaşı, Azərbaycan tarixində önəmli rol oynamış şəxsiyyətlərin həyatı haqqında da nadir materiallar təqdim edilib. Burada Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin nadir fotoları və məktubu, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əmin Abid Gültəkin, Üzeyir bəy Hacıbəyli, Əlimərdan bəy Topçubaşov, Nuru Paşa, Salman Mümtaz və digər görkəmli şəxsiyyətlərin həyatı haqqında maraqlı məlumatlar verilib.

"Mühacirlərin dönüşü" adlı kitabda isə Azərbaycan Xalq Cümhuriyyəti və mühacirət tarixinə dair zəngin material təqdim edilib.

"Azərkitab" Kitab Təbliğatı Mərkəzinin layihə rəhbəri Mirisrafil Sabir Həsənov, Əməkdar rəssam, Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə və digər çıxış edənlər Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsinin əhəmiyyətini xüsusi vurğulayıblar, kitabların tariximizlə bağlı dəyərli mənbə olduğunu qeyd ediblər.

## Xalq Cümhuriyyəti qürurumuzdur

Şabranda Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Cümhuriyyət tariximiz qürurumuzdur" mövzusunda konfrans keçirilib.

Şabran Heydər Əliyev Mərkəzində təşkil olunan konfransda çıxış edən İcra Hakimiyyətinin başçısı Novruz Novruzov, Bilik Fondunun icraçı direktoru Oktay Səmədov "Azərbaycan Xalq Cümhuriyyəti ili"ndə planlaşdırılan tədbirlərdən söz açıblar.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Ümumi tarix şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor Tofiq Mustafazadə "Azərbaycan Xalq Cümhuriyyətindən müstəqil Azərbaycan Respublikasına aparan 100 il" mövzusunda mühazirə ilə çıxış edib.

Fondun rayon nümayəndəsi, Şabran şəhər Tofiq Abbasov adına 1 nömrəli tam orta məktəbin direktoru Fikrət Şamxalovun "Şabranda bolşevik və erməni-daşnak dəstələrinə qarşı mübarizə tarixi" adlı məruzəsi də dinlənilib.

Məktəblilərin ifasında Vətənə, onun azadlığı və müstəqilliyi yolunda həyatını qurban vermiş şəhidlərə həsr olunan şeirlər səslənib.

# Tariximizin Şirvanşahlar salnaməsi

## Milli Azərbaycan Tarixi Muzeyində açılan sərgidən təəssürat

**Xəbər verdiyimiz kimi, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Azərbaycan Şirvanşahlar dövləti" adlı sərgi açılıb. İki aya yaxın davam edəcək sərginin məqsədi tariximizin önəmli səhifələrindən olan Şirvanşahlar dövlətinin (IX-XVI əsrlər) siyasi, inzibati, iqtisadi, hərbi xüsusiyyətlərini göstərmək, əldə etdiyi nailiyyətləri, mədəni irsini nümayiş etdirməkdir. Sərginin kuratoru muzeyin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədovdur.**



### Tarixə səyahət

Bu günlərdə yolumuzu muzeydən salıb sərgi ilə tanış olduq. Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin əməkdaşı Nərmin Bağırova sərgi haqqında məlumat verdi. Diqqətə çatdırdı ki, Şirvanşahlar dövləti barədə sərgi ilk dəfə təşkil edilir.

Şirvanşahlar dövləti vaxtilə Cənub-şərqi Qafqazda - əsasən indiki Azərbaycan Respublikası və qismən də indiki Dağıstan (Rusiya Federasiyası) ərazisində mövcud olub. Paytaxtı Şamaxı və Bakı şəhərləri idi.

Şirvanşahlar dövlətinin banisi Heysəm ibn Xalid, son hökmdarı isə Şahrux ibn Fərrux Yasar hesab edilir. Təxminən 7 əsr mövcud olmuş Şirvanşahlar dövlətinin varlığına Səfəvi hökmdarı I Təhmasibin Şirvana yürüşləri nəticəsində son qoyulub. Heysəm ibn Xalidin nəslindən olan şahlar dövləti idarə ediblər. Bəzi tarixçilər Şirvanşahlar sülaləsinin hakimiyyətini 3 mərhələyə - Məzyədilər, Kəsranilər və Dərbəndilər dövrlərinə bölürlər. Hesab edirlər ki, əgər Məzyədilər özlərinin ərəb mənşələrini qoruyub saxlaya bilmişdisə, Kəsranilər özlərini daha çox Sasani şahlarının nəslindən hesab edib, İran mədəniyyətinə meyil göstəriblər. Dərbəndilər isə ənənəvi "Şirvanşah" titulu ilə yanaşı "Xan", "Xaqan" titulları da daşıyaraq türk mədəniyyətinin təsiri altında olublar.

### Eksponatların əksəriyyəti ilk dəfə nümayiş olunur

Sərgidə muzeyin fondlarında qorunan 225 eksponat "Şirvanşahlar dövlətinin inzibati quruluşu və dövlətçilik ənənələri", "Hərb işi", "Dənizçilik", "Sənətkarlıq və ticarət", "Şəhərlər", "Elm və mədəniyyət" bölmələri üzrə nümayiş olunur. Bu eksponatların böyük əksəriyyəti tamaşaçılara ilk dəfə təqdim edilir. Bakı, Şamaxı, Şabran və digər ərazilərdə aparılmış arxeoloji qazıntılarda aşkarlanmış materiallar muzeyin bərpa laboratoriyasında təmizlik-bərpa işləri aparılandan sonra sərgidə nümayiş etdirilir.

Şirvanşahlar dövlətinin irsini sistemli izah etmək məqsədilə sərgidə 25 məlumat paneli qurulub. Burada yazılı məlumatla bərabər sxemlər, rəsmlər də təqdim edilir. Monitorda dünya muzeylərində qorunan ipək parçalar, mis qablar, qızıl və gümüş zərgərlik əşyaları, şirli saxsı qablar, müxtəlif silahlar nümayiş olunur. Eksponatlar sırasında keramika məmulatı, mis, tunc, gümüş və ağac əşyalar, parçalar, silahlar, hakimiyyətdə olmuş bir neçə sülalənin rəmzləri də diqqəti cəlb edir. Sərgidə Şirvanşahlara məxsus 80 ədəd pul nümunəsi də yer alıb. Bu numizmatika örnəkləri arasında IX-XVI əsrlərdə Şirvanın müxtəlif şəhərlərində və müxtəlif Şirvan şahları adından zərb edilmiş pullar var.



Həmçinin Şirvanşahlar dövrü abidələrinin və görkəmli şəxsiyyətlərinin fotoşəkilləri maraq doğurur. Bu sırada "Pir Hüseyn xanəgahı" (XIII əsr), "Qobustanda karvansara" (XV əsr), Seyid Yəhya Bakuvi, İmadəddin Nəsimi, Xaqani Şirvani və Fələki Şirvaninin şəkillərini və s. qeyd edə bilərik.

Sərgidə maraqlı məqamlardan biri də Milli Azərbaycan Tarixi Muzeyinin sualtı arxeologiya tədqiqat qrupu tərəfindən Xəzər dənizində aşkar edilmiş eksponatların nümayiş olunmasıdır. Misal üçün, şüşə qab hissələri, saxsı dolça, çıraq, şirli flakonlar, Şabran şəhərində aşkar edilən kaşılar, həmçinin Şirvanşahlar dövlətinin döyüşçülərinin dəbilqələri, halqalı zirehlər, dizliklər, qılınc və xəncərlər, Şəkidə arxeoloji qazıntılar zamanı XIII əsrə aid tunc qazan və qablar da sərginin diqqətçəkən eksponatlarındandır.

### Dövlətin xarici əlaqələri

Bələdçimiz Şirvanşahlar dövlətinin iqtisadi həyatı ilə də bağlı məlumat verdi. Qeyd etdi ki, XIII əsrin sonu - XIV əsrin əvvəlləri Azərbaycanın beynəlxalq ticarət əlaqələrinin xeyli genişləndiyi dövrdür. İçərişəhərdəki köhnə Buxara karvansarası həmin dövrün yadigarıdır. Bu, Bakının Orta Asiya şəhərləri ilə ticarət əlaqələri saxladığını bir daha təsdiqləyir. Şirvanşahlar sarayı ərazisində XIV əsrə aid bürünc Kubaçi çıraqlarının və Rey keramikasının tapılması Dağıstan və İranla ticarət və iqtisadi əlaqələrin olduğunu göstərir. Şirvanşahların hakimiyyəti dövründə Xəzər dənizi vasitəsilə dəniz ticarəti də böyük vüsət almışdı. Gəmiləri Qara dənizdə üzən Genuya və Venesiya sahillərində tacirlərin faktoriyalar (Avropa tacirlərinin müstəmləkə ölkələrində ticarət kontoru və yaşadıqları yer - red.) təşkil etmələrinə, Xəzər dənizində də donanmalarının olmasına dair məlumatlar var.

### Dövrün sənətkarlıq nümunələri

Öyrənirik ki, XII-XIII əsrlərdə Şirvanda dekorativ və plastik sənət böyük inkişaf yolu keçib. Sənətkarların abidələr üzərində qalmış adları Şirvanda bir sıra istedadlı heykəltəraşların olduğunu göstərir. Bakı buxtasında, XIV əsrdə su altında qalmış uzunsov düzbucaq formalı qala tipli tikilinin yerində (Bayıl daşları deyilən yer) üzərində ərəb əlifbası ilə kitabələr həkk olunmuş səkkiz yüzədək sal daş tapılıb. Fars dilindəki bu kitabələr vaxtilə abidənin divarlarını yuxarıdan dövrələyən frizdə yerləşdirilib. Salların boş qalan yerlərində qabarıq şəkildə müxtəlif heyvan, əfsanəvi varlıq, bəzilərində tac olan insan başları təsvir olunub. Bu qabartmaların bir çoxu böyük sənətkarlıqla, realist səpkidə işlənib. Bu və ya digər heyvana məxsus hərəkətlər düzgün təcəssüm etdirilib. Bir neçə daşda isə memar Zeynəddin ibn Əbu Rəşidin, nəqqaş Rəşidin adları çəkilir.

* * *

Şirvanşahlar dövlətinin hərtərəfli tanıdılmasına imkan yaradan, bizim də zövq aldığımız bu tarixi sərgi mayın 15-dək ziyarətçilər üçün açıq olacaq. Tariximizə yolçuluğa siz də qoşulun.



**Savalan Fərəcov**

**Yəqin ki, "Ulduz" filmindəki kolxoz sədri Qədir obrazını yaxşı xatırlayırsınız. Gəlimli-gedimli dünyanın qəribə işləri varmış: bir obrazla sənət tarixinə düşə bilmək, bir obrazla yadda qalmaq. Bu gün həmin rolu canlandıran aktyor Bahadur Əliyev aramızda olmasa da, tamaşaçılar onu Qədir obrazı ilə hər zaman yad edir, xoş xatirələrlə anırlar...**

# Canlı, təbii obrazlar ustası

## "Yarım əsr "Azərbaycanfilm" kinostudiyasında çalışan aktyor Bahadur Əliyev kinonun durğunluq dövründə çox xiffət çəkib"



24 fevral 1933-cü ildə Masallının Sığıncaq kəndində anadan olan Bahadur Əliyev 1957-ci ildə İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) Kino və dram aktyorluğu fakültəsini bitirib. O, Azərbaycan kinosu tarixində epizodik obrazları canlandıraraq tamaşaçı rəğbəti qazana bilən aktyorlardandır. Ömrünün çox hissəsini "Azərbaycanfilm" kinostudiyası ilə bağlayan aktyor filmlərdə rol almaqla yanaşı, həm də dublyaj sahəsində səmərəli fəaliyyət göstərib. Filmoqrafiyasına 80-dək ekran əsəri daxil olan aktyor bir müddət kinostudiyada dublyaj sexinin müdir müavini işləyib.

Onun "Böyük dayaq" (komsomolçu), "Axırıncı aşırım" (Eyvaz), "Babək" (Divdad), "Dərviş Parisi partladır" (Bəy) və s. filmlərdə yaratdığı epizodik, amma yaddaqalan rollar aktyor peşəkarlığı ilə seçilir. Bahadur Əliyev SSRİ və Hindistanın birgə istehsalı olan "Əlibaba və 40 quldur" filmində də rol alıb. Orta Asiya respublikalarında filmlərə dəvət alan aktyorun məşhur özbək filmi "Şerəli və Aybərçin"də oynadığı rol özbəklərin də sevgisini qazanıb.

1990-cı illərin əvvəllərində, Azərbaycanın müstəqilliyinin ilk və çətin illərində, ölkə həyatının digər sahələrində olduğu kimi, kino sənayesində də böhran yaşanırdı. Sənət naminə ən kiçik rollara belə qane olan Bahadur Əliyev uzun müddət işsiz qalır. Ömrünü sənətə həsr edən bir insan üçün milli kinonun bu vəziyyətini görmək dözülməz idi...

Bu günlərdə 85 illiyi münasibətilə aktyoru oğlu Rauf Əliyevlə yad etdik. O, atasının ailədə intizama, tərbiyəyə verdiyi önəmi xüsusi qeyd edir: "Atam bizi milli-mənəvi dəyərlərə bağlı böyüdüb. Evdə hamımızla ciddi davranardı. 17 yaşında Masallıdan Bakıya gəlmişdi. Onun ətrafında yalnız xoşniyyət, safqəlbli insanları görə bilirdik. Təkcə azərbaycanlı dostları deyil, keçmiş sovet respublikalarından da çoxsaylı dost-tanışları qonağımız olardı. Atamın sovet respublikalarının kinostudiyaları ilə əlaqələri var idi və ayrı-ayrı filmlərimizə həmin studiyalardan aktyorların cəlb olunmasında öz köməyini əsirgəməzdi. Kinoya həddsiz bağlı idi. Bütün günü kino işləri ilə məşğul olurdu. Görkəmli aktyorlarımız Müxlis Cənizadə, Gündüz Abbasov, Əfrasiyab Məmmədov, Məmmədrza Şeyxzamanov, Səməndər Rzayev, Ceyhun Mirzəyev, müğənni Oqtay Ağayev və başqaları yaxın dostluq etdiyi sənətkarlar idi. Həsən Məmmədov, Şahmar Ələkbərov, Rasim Balayev, Elxan Qasımov atamdan yaşca kiçik olsalar da, onlarla ailəvi yaxın münasibət saxlayırdı. Tərəf-müqabili olan xanım sənətkarlardan Ofeliya Məmmədzadə, Leyla Bədirbəyli və İçərişəhərdə qonşu olduğumuz Şövkət Ələkbərova ailəmizin ən xoş günlərində həmişə atamın yanında olardılar".

Müsahibim qeyd edir ki, Bahadur Əliyev həyatını kinonun inzibati işlərinə daha çox həsr edib: "Mozalan" satirik kinojurnalında da çox çəkilmişdi, dublyajlarda yaxından iştirak edirdi. Kinonun durğunluq dövründə çox xiffət çəkirdi. Nə qədər olmasa da, ömrünün təxminən 50 ilini "Azərbaycanfilm" kinostudiyasında çalışmış bir insan üçün çətin idi. Bir hobbisi də poeziya idi. Həm poeziyanı sevirdi, həm də özü şeirlər yazırdı...".



Bahadur Əliyev 2002-ci il sentyabrın 16-da vəfat edib. Onu da qeyd edək ki, sənətkarın 85 illik yubileyi ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulub. Rauf Əliyev atasının xatirəsini əziz tutan hər kəsə bəri başdan təşəkkürünü bildirdi.



**Dostların xatirəsində**

Bahadur Əliyev sənətkar olaraq unudulmadığı kimi, yaxşı bir dost, müsahib kimi də müasirlərinin xoş xatirələrlə yada saldığı insanlardandır. Əməkdar mədəniyyət işçisi, dublyaj rejissoru Arif Həbibi onu istedadlı və cəfakeş sənətkar kimi xarakterizə edir: "İstər ailə üzvlərinin, istərsə də sənət dostlarının xatirələrində o, şən, fərqli xarakterə malik insan kimi qalıb. Çəkildiyi filmlərə nəzər salanda görmək olur ki, onun üçün rolun böyüyü, kiçiyi olmayıb. O, həmişə yaratdığı obrazın canlı və təbii olmasına, yadda qalmasına, tamaşaçılar tərəfindən maraqla qarşılanmasına çalışıb. Bahadur Əliyevlə 1967-ci ildən 1991-ci ilədək birlikdə çalışmışıq. Əsasən sovet və hind filmlərinin səsləndirilməsində onun əməyini qeyd etmək istərdim. Onun səsi məhz bir çox obrazlar üçün əvəzsiz idi. Çox alicənab və səmimi insan idi".

Xalq artisti İlham Namiq Kamal aktyorla "Mozalan" kinojurnalında çalışdıqlarını və Azərbaycan Radiosunun "Sabahınız xeyir" verilişinin daimi iştirakçısı olduqlarını bildirdi:

- Radioda çoxsaylı yumoristik verilişlərdə birgə çıxış etmişik. Bahadur təbii, dostcanlı insan idi. Bəlkə çoxları unudub ki, o həm də dövlət tədbirlərinin daimi iştirakçısı idi. Rəsmi dövlət tədbirlərində Bahadurla Cahangir Aslanoğlunun ssenariləri əsasında yumoristik səhnələrlə çıxış edərdik. Bu çıxışlarda Hüseynağa Sadıqov və digər görkəmli sənətkarlarımız da iştirak edərdilər.

Uzun illər Bahadur Əliyevlə bir yerdə çalışmış aktyor, rejissor, Əməkdar artist Elxan Qasımov:

- Bahadurun adını kimin yanında çəksən, hər kəs onu xoş hislərlə xatırlayacaq. Qəribə, özünəməxsus gülüşü var idi. Gülüşü ilə daha da pozitivlik yaradırdı. Çox əliaçıq, həyatsevər, əxlaqlı insan idi. Kinostudiyanın bütün işlərində yaxından kömək edərdi. 10 uşaq atası olsa da, heç nədən şikayət etməzdi. Sovetlərin dağılması, Azərbaycanın keçirdiyi çətin illər kino sənətinə də təsirsiz ötüşmədi. Elə aktyorlarımız var ki, istedadları və sənətdə qoyduqları izlə əbədi ömür qazanıblar. Bahadur Əliyev də onlardan biridir".

Bu gün Azərbaycan kinosu tarixində Bahadur Əliyevdən yaratdığı obrazlar, bir də şirin xatirələr qalıb. 120 yaşını qeyd etdiyimiz kinomuzda onun kimi xidmətləri olan sənətkarları yad edək ki, gənc nəsillər də tanısın...

**Lalə Azəri**

## Tanınmış radio diktoru dünyasını dəyişib



Xalq artisti, tanınmış radio diktoru Qarasim Tağızadə vəfat edib.

Qarasim Əbdülhəsən oğlu Tağızadə 1946-cı ildə Beyləqanda dünyaya gəlib. Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib.

Uzun illər Azərbaycan Radiosunun diktoru olub. Daha sonra radioda diktorlar şöbəsinə rəhbərlik edib.

Qarasim Tağızadə 1991-ci ildə respublikanın Əməkdar incəsənət xadimi, 1998-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb. 2003-cü ildən Prezident təqaüdçüsü idi.

Allah rəhmət eləsin.

## Görkəmli ədəbiyyatşünas alimin xatirəsi anılıb

Martın 5-də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, pedaqoq, Əməkdar elm xadimi, akademik Feyzulla Qasımzadənin 120 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov alimin həyat və yaradıcılığından, elmi-pedaqoji fəaliyyətindən danışıblar, məruzələr dinlənilib.

Qeyd olunub ki, akademik Feyzulla Qasımzadə Azərbaycan ədəbiyyatı tarixinin, xüsusilə də XIX əsr mərhələsinin araşdırılaraq elmi müstəviyə gətirilməsində və təbliğində müstəsna xidmətlər göstərib. Onun böyük zəhmətinin və gərgin elmi axtarışlarının nəticəsi olan "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərsliyi həmin dövrün ədəbiyyatının öyrənilməsi və ədəbi-bədii düşüncənin təhlili baxımından çox dəyərli elmi mənbədir.

Tədbirdə görkəmli alimin ömür yolunu əks etdirən film nümayiş olunub.

## Mətbuat Şurası jurnalistin vəfatı ilə bağlı başsağlığı verib



Azərbaycan Mətbuat Şurası tanınmış jurnalist və hüquqşünas, "Femida" qəzetinin baş redaktoru Əyyub Zakir oğlu Kərimovun faciəli şəkildə dünyasını dəyişməsi ilə bağlı mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Mətbuat Şurası adından yayılan nekroloqda qeyd olunur ki, Ə.Kərimov Şuranın formalaşmasında, qurumun fəaliyyət sənədlərinin hazırlanmasında böyük əmək sərf edib, Şuranın İdarə heyətində təmsil olunub. "O, hüququ və jurnalistikanı daim vəhdətdə saxlamağı, hər iki peşənin xüsusiyyətlərindəki ictimai motivləri cəmiyyət mənafeləri baxımından prioritet vəzifələrə çevirməyi bacarırdı. Əməksevərliyi, prinsipiallığı ilə həmkarlarının hörmətini qazanmışdı", - deyə nekroloqda bildirilir.

Allah rəhmət eləsin.

# "Cənab 420"...

## ingilis şlyapası və yapon başmaqları

**Əsl adı Ranbir Rac - dünyaca məşhur aktyor, rejissor, prodüser və ssenarist Rac Kapur. Sovet dövründə kinosevərlərin Hindistanın kino sənəti ilə tanışlığı "Avara" filmi ilə başlamışdı. Həmin ölkənin incəsənət xadimləri 1954-cü ilin sentyabrında ilk dəfə Moskvada keçirilən hind filmləri festivalına bu ekran əsərini də gətirmişdilər. Film rejissorun gözlədiyindən də artıq müvəffəqiyyət qazanmışdı. Rac Kapur o vaxt zarafatla belə demişdi: "Mənim "Avara"m burada özünə mənzil və dost tapdı".**





Azərbaycanın kinosevərləri isə 1955-1956-cı illərdə əvvəlcə "Avara", sonra "Cənab 420" filmlərinə "Nizami" və "Vətən" kinoteatrlarında saatlarla növbəyə dayanıb, bilet aldıqdan sonra baxa bilmişdilər. Hər iki film tamaşaçıları ovsunlamışdı. «Avara» filmindəki mahnının melodiyası və Rac Kapurun adı dillər əzbəri oldu. Gənclər o melodiyanı həvəslə hər yerdə oxuyurdular. Qızlar isə filmin ikinci qəhrəmanın yaradan aktrisa Nərgizə (Fatimə Rəşid) məftun olduqlarını gizlətmir və ona oxşamağa çalışırdılar. O vaxtlar R.Kapurun filmləri seyrçiləri sanki möcüzəli bir aləmə aparırdı. Həmin aləmin təravəti, saf hisləri indi də xatirələrdə yaşayır...

Rac Kapur 1924-cü il dekabrın 14-də Peşəvarda doğulub. Atası Prithviraс Kapur məşhur aktyor və teatr rejissoru olub. Kiçik yaşlarından sənət aləminə daxil olan Rac «Rancit» kinostudiyasında rejissor assistenti kimi işə başlayıb. Eyni zamanda atasının yaratdığı "Prithvi Theatres" truppasında aktyor olub. O, 1935-ci ildə 11 yaşında ilk dəfə «Zəlzələdən sonra» filminə çəkilib. 1943-cü ildən başlayaraq filmlərdə epizodik rollara, 1946-cı ildə isə «Valmiki» filmində baş rola dəvət alıb. Daha sonra bir-birinin ardınca «Mavi lotos», «Çittaridə qələbə», «İstəkli xanım», «Məhkum olunmuş» (V.Hüqonun «Səfillər» romanı əsasında) və s. ekran əsərlərində müxtəlif səpkili rollar oynayıb. Kapur aktyorluq karyerası dövründə ümumilikdə 70-dən çox filmə çəkilib.

**Aktyorluqdan rejissorluğa**

Lakin o, uşaqlıqdan rejissor olmaq istəyirdi. 1947-ci ildə 23 yaşlı gənc Bombeydə «Rac Kapur-films» studiyasını yaradır. Həmin günləri o, belə xatırlayırdı: "Başlanğıcda əməkdaşlarımızın sayı az idi. İşçilərin və maliyyənin çatışmazlığını ruh yüksəkliyi ilə əvəz edirdik. Çəkiliş zamanı bütün günü işləyirdik, bəzən yeməyi və istirahəti də unudurduq. Rəssam, bəstəkar və fəhlələr eyni vaxtda kütləvi səhnələrdə iştirak edir, bəzən kiçik rolları da oynayırdılar".

Kapur isə qəhrəmanları oynamaqdan əlavə, ssenarist, rejissor, prodüser və inzibatçı vəzifələrini də icra edirdi. Çəkilişlərdə tərəf-müqabili olan gözəl, lirik aktrisa Nərgiz ona həmişə kömək edirdi. Əvvəlcə «Alov» (1948), sonra isə «Yağış mövsümü» (1949) filmlərini çəkən Kapur məhəbbət və ehtiram mövzusunu sənətə gətirməklə yaradıcılıq istedadını nümayiş etdirir, mütəxəssislərin və tamaşaçıların diqqətini özünə cəlb edə bilir.

"Yağış mövsümü"ndə Kəşmir vadisinin gözəl mənzərələri, bəstəkarların ürəyəyatımlı nəğmələri filmə xüsusi rəng qatırdı. Bundan əlavə, Kapurun aktyorluq traktovka üslubu, xüsusilə romantik məhəbbət səhnələri filmi son dərəcə baxımlı edirdi. Pakistan qaçqınlarının taleyindən bəhs edən bu kinolent çəkiliş qrupuna böyük məbləğdə gəlir qazandırmışdı. Gənc kollektivə yaradıcılıq uğuru gətirən ekran əsəri onu daha böyük film üzərində işləməyə sövq edir.

1951-ci ildə Rac Kapur ikiseriyalı "Avara" filmini çəkmək qərarına gəlir. İfaçıları çox axtarmalı olurlar. Racın atası hakim Raqunatın roluna aktyor tapmaq xüsusilə çətin olur. Bu barədə Kapur belə demişdi: "Atamı həmin obrazda görmək təbii olardı. Ancaq mən cəsarət edib ona - hind kinosunun veteranına bu rolu təklif edə bilməzdim. Nəticədə təkcə atamı yox, babamı da filmə çəkilməyə razı saldım". "Avara" filmi üzərində iş üç il davam etdi. Film başa çatmamış vəsait qurtardı. O zaman Kapur və Nərgiz digər kinoşirkətlərin filmlərinə çəkilməyə başladılar. Qazanılan pulları isə öz filmlərinin ehtiyacına xərcləyirdilər.

**Kapurun filmləri dünya ekranlarına çıxır**

«Avara» filmi Hindistanda böyük müvəffəqiyyət qazandıqdan sonra dünyada, o cümlədən SSRİ-də ekranlara yol tapır. Geniş tamaşaçı rəğbətini qazanan film rejissora dünya şöhrəti gətirir və 1953-cü ildə Kann kinofestivalının «Qızıl palma» mükafatına layiq görülür. Həmin ildən etibarən Bombeydəki balaca studiyaya müxtəlif ölkələrdən turistlərin axını başladı. O zaman Kapur haqqında çox danışır və yazırdılar, onu Çarli Çaplinlə müqayisə edirdilər. Fransız kinoşünası Jorj Sadul yazırdı: "Rac Kapur dünyası öz bədbəxt qəhrəmanı və əhatəsində olan sadə, təmizqəlbli insanlarla bərabər, eyni zamanda vicdansız polis məmurları, varlı, boynuyoğun ağaları və gözəl xanımları ilə Çaplinin dünyasına çox bənzəyir".

Qazanılan uğurdan ruhlanan Rac Kapurda yeni ikiseriyalı "Cənab 420" satirik komediyasına quruluş vermək həvəsi yaranır. Çəkilişləri 1955-ci ildə başa çatan bu film də bir növ "Avara"nın davamı idi. Racın yaratmış olduğu balacaboy, yöndəmsiz geyimli, başına ingilis şlyapası qoymuş, ayağına yapon başmaqları geymiş safürəkli, nikbin xasiyyətli və gələcəyə ümidlə baxan adamı tamaşaçı qəlbən sevir və ona rəğbət bəsləyir.

Filmdə sosial ədalətsizliyə qarşı səsini ucaldan Rac məzlumların müdafiəçisi kimi çıxış edir. Şəhərə qazanc dalınca gələn qəhrəman insanlar arasındakı qeyri-bərabərliyi görür və bu vəziyyət onu çox narahat edir. Xalqın zəhməti hesabına varlanan, günlərini restoran və kazinolarda keçirən, şişman bədənli, piyləşmiş sifətli adamları görmək artıq onu bezdirir. Bir müddət sonra Rac şəhər mühitindən üz döndərərək ata ocağına dönmək qərarına gəlir. Son kadrlarda Rac yolboyu oxuya-oxuya «apar məni, yapon başmaqları, mən doğma kəndimə qayıtmaq istəyirəm» - deyir. Mahnı və rəqslərlə zəngin olan «Cənab 420» filmi Benqal Kinojurnalistlər Assosiasiyası tərəfindən doqquz nominasiya üzrə mükafat aldıqdan sonra pərəstişkarları Kapura Hindistanın ən yaxşı rejissoru adını verirlər.

Qazandığı mükafatlar və tamaşaçı məhəbbəti Kapuru daha səylə işləməyə həvəsləndirir, yeni mükafatlar qazanır. «Ayıq olun!» filminə görə Kapur Karlovı-Varı festivalında «Qrin-pri» mükafatına (1957) layiq görülür. Rac Kapur 20-dək filmin quruluşçu rejissoru və prodüseri olub. 60-70-ci illərdə o, "Sanqam", «Mənim adım Kloundur», «Bobbi», «Həqiqət, müqəddəslik və gözəllik» və başqa filmləri çəkir. Gənclərin romantik məhəbbətindən bəhs edən «Bobbi» filminin kommersiya uğuru qazanması onun istedadlı rejissor olmasını bir daha sübut edir.

Sovet kinosevərlərinə yaxşı tanış olan «Bobbi» filmində, müəlliflərin sözlərinə görə, yalnız Hindistanda Romeo və Cülyetta məhəbbətinin səadətə qovuşmasının şahidi olmaq mümkündür. Kasıb qızla milyonçu ailəsindən olan gəncin sevgisinə nə nəsil ədavəti, nə də sinfi mübarizə mane ola bilir.

**Kino ulduzunun Bakı görüşləri və iki korifeyin dostluğu**

Hind xalqının böyük oğlu Rac Kapurun həyatında Bakı ilə əlaqədar tarixi məqamlar da əksini tapıb. Bakı kinosevərləri ölməz sənətkarın filmlərini seyr etməklə bərabər, özü ilə də canlı ünsiyyətdə olmaq imkanı əldə ediblər. 1956-cı ildə, sonra isə 1965-ci ildə SSRİ-də keçirilən Hindistanın mədəniyyət günləri çərçivəsində Kapur Bakıya gəlmişdi. Yeri gəlmişkən, xatırladaq ki, ilk dəfə onun Bakıya gəlişinin təşəbbüskarı Azərbaycan vokal sənətinin korifeyi Rəşid Behbudov olmuşdu.

R.Kapur Bakıda olarkən Azərbaycanın kino sənəti ilə də maraqlanmış və Hüseyn Seyidzadənin «O olmasın, bu olsun» filminə baxandan sonra onun rejissorluq işinə yüksək qiymət vermişdi. Hətta o, H.Seyidzadəyə və quruluşçu operator Ə.Atakişiyevə Hindistana gəlib, orada film çəkməyi təklif etmişdi.

«Avara» filminə baxandan sonra Rac Kapurun aktyorluq istedadına valeh olan ölməz müğənnimiz R.Behbudov onunla şəxsən tanış olmaq istəmişdi. İki böyük sənətkarın ilk görüşü SSRİ incəsənət xadimlərinin 1952-ci ildə Hindistana səfəri zamanı baş tutdu. Onların yaradıcılıq ideyaları ilə bir-birini tanış etməsi möhkəm dostluğun başlanğıcı oldu.

Qeyd etmək lazımdır ki, bu istedad sahiblərinin oxşar cəhətləri də var idi. Hər ikisi dekabrın 14-də anadan olmuşdu və ailə üzvlərinin də əksəriyyəti incəsənətə xidmət edirdi. R.Kapur Rəşid müəllimin oxuduğu mahnıları dinlədikdən sonra onun ifaçılıq məharətini çox bəyənmiş və görüşlərin birində belə demişdi: "Əgər bilsəydim ki, Rəşid hind mahnılarını belə gözəl ifa edir, mütləq onun səsini filmlərə yazardım".

İlk görüşdən sonra R.Behbudov bir neçə dəfə Hindistana getmiş və Kapurla ünsiyyətdə olmuşdu. Onlar şərikli film çəkməyi də planlaşdırırdılar. Lakin hind kino ustadının uzun sürən ağır xəstəliyi bunun reallaşmasına imkan vermədi. R.Kapurun xəstəliyindən xəbər tutan Rəşid müəllim 1988-ci ilin avqustunda Bombeyə gedərək, aktyorun yaşadığı evində onunla görüşdü. Sadiq dostu ilə son dəfə görüşdüyünü hiss edən Kapur ona bir neçə xatirə hədiyyəsi bağışladı.

1988-ci il dekabrın 2-də Rac Kapur 64 yaşında vəfat etdi. Ondan yarım il sonra isə R.Behbudov dünyasını dəyişdi...

**Həsən Tağıyev**

## 30 ildən sonra...

### Səudiyyə Ərəbistanında kinoteatrlar fəaliyyətə başlayıb

Xəbər verdiyimiz kimi, Səudiyyə Ərəbistanı Krallığında 30 il əvvəl kinoteatrların fəaliyyətinə qoyulmuş qadağa ləğv edilib.

Ölkənin Mədəniyyət və İnformasiya Nazirliyi martın 1-dən etibarən kinoteatrlara lisenziyalar verməyə başlayıb. 2030-cu ilədək 300-dən çox kinoteatrın fəaliyyət göstərəcəyi planlaşdırılır. Nümayiş olunacaq filmlər ciddi senzuradan keçiriləcək.

## Belə mükafatı kimsə arzulamaz...

Amerikada kinematoqrafiya sahəsində ən uğursuz filmlərə verilən "Qızıl moruq" mükafatının növbəti sahibləri elan olunub.

"Emoci" filmi "Qızıl moruq" mükafatının "İlin ən pis filmi" baş nominasiyasında qalib gəlib. Giləmeyvə təsvirində olan, 5 dollar dəyərindəki heykəlcik uğrunda "mübarizə"də "Emoci" filmi "Mumiya", "Transformerlər: son cəngavər", "50 çalar daha tünd", "Malibunun xilaskarları" kimi rəqibləri geridə qoyub.

Emocilərin həyatı barədə əsər, həmçinin "Ən pis ssenari" (təşkilatçılar onu 86 səhifəlik SMS adlandırırlar), "Ən pis ekran dueti" və "Ən pis rejissor" (bu mükafatı Toni Leonidis alıb) nominasiyalarının qalibi olub.

Hollivud ulduzu və üçqat "Oskar" mükafatı laureatı Tom Kruz karyerasında ilk dəfə olaraq "Qızıl moruq" mükafatını "Mumiya" filmində ən pis aktyor işinə görə qazanıb.



Aktyor Tayler Perri "Hellouin Medei 2" filmində ən pis qadın rolu ifaçısı kimi mükafatlandırılıb.

İkinci planda ən pis aktyor Mel Gibson ("Salam ata, Yeni il! 2"), ən pis aktrisa Kim Besincer (50 çalar daha tünd) elan edilib.

"Qızıl moruq" laureatlarının adları adəti üzrə Amerika Kino Akademiyasının "Oskar" mükafatlarının təqdim edilməsindən bir gün əvvəl açıqlanır.

# Od çərşənbəsi - təbiətin isti nəfəsi



**Novruz bayramının, baharın müjdəçisi olan çərşənbələrdən ikincisi - Od çərşənbəsi yurdumuza qədəm qoydu. Ötən axşam (6 mart) Od çərşənbəsinin tonqalları qalandı, oyanan təbiətin nəfəsi ətrafa yayıldı.**

Od çərşənbəsinə el arasında üskü (tonqal) və ya ocaq çərşənbəsi də deyirlər. İnanclara görə, insan odu nə qədər əzizləsə, bir o qədər yüngül olar, çətinlikləri azalar. El arasında deyilənə görə, od çərşənbəsində ocağı yandırıb, qazanı qaynatsan ilin sonuna qədər "ocağın yanar, qazanın qaynar" olar.

Od insan üçün sirli, cazibəli varlıqdır. Onun əldə edilməsi insanlar üçün çox böyük tapıntı, yaşam üçün əvəzsiz bir vasitə olub. Türklərin əski dünyagörüşündə odun ayrıca yeri var. Babalarımız oda inamı müqəddəslik səviyyəsinə qaldıraraq mənalandırıblar. Od işıq qaynağı olaraq qaranlığı yarır, insanı aydınlığa çıxarırdı. Bu gün də kainatda yaşam üçün təbii işıq və istiliyin başlıca qaynağı olan günəşin hər gün doğmasını, bizi aydınlığa çıxarmasını, isindirməsini istəmirikmi?

Beləliklə, əzəldən insanın oda olan inamı, sevgisi başlıca olaraq qaranlığı qovan, yoxa çıxaran işığa, aydın səmaya olan inamdır.

Beləcə, Novruz bayramına iki çərşənbə (yel və torpaq) qaldı...

**Bəhruz**

## AFİŞA 7-9 mart

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
**Nizami küçəsi 95**

| | | |
|---|---|---|
| 7 mart | P.Çaykovski - "Qu gölü" (balet) | 19.00 |
| 8 mart | Ü.Hacıbəyli - "Koroğlu" (opera) | 14.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı**
**Füzuli meydanı 1**

| | | |
|---|---|---|
| 8 mart | M.S.Ordubadi - "Qətibə İnanc" | 19.00 |
| 9 mart | Elçin - "Cəhənnəm sakinləri" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı**
**Zərifə Əliyeva küçəsi 8**

| | | |
|---|---|---|
| 8 mart | Ə.Səmədli - "Toya bir gün qalmış" | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı**
**Xaqani küçəsi 7**

| | | |
|---|---|---|
| 8 mart | Cey Cevenin (İsrail) qastrolu | 19.00 |
| 9 mart | U.Şekspir – "Yay gecəsində yuxu" | 12.00, 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı**
**Nizami küçəsi 72**

| | | |
|---|---|---|
| 9 mart | «British Council», Mədəniyyət və Turizm Nazirliyi və Təhsil Nazirliyinin birgə layihəsi - "Bir günəş altında" (interaktiv tamaşa) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı**
**Neftçilər prospekti 36**

| | | |
|---|---|---|
| 8 mart | S.Marşak - "Pişiyin evi"<br>C.Rodari - "Çipollino" (rus dilində) | 12.00, 14.00<br>16.00 |
| 9 mart | Ş.Perro - "Qırmızıpapaq"<br>T.Ağayev - "Qoçaq Əhməd" (rus dilində) | 12.00, 14.00<br>16.00 |

**Yuğ Dövlət Teatrı**
**Neftçilər prospekti 36 (Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 9 mart | O.Fikrətoğlu - "Fəna" | 19.00 |

**Heydər Əliyev Sarayı**
**Bülbül prospekti 35**

| | | |
|---|---|---|
| 7 mart | "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalının açılışı | 19.00 |
| 8-9 mart | "Bu şəhərdə"nin şou proqramı | 19.00 |

**Kamera və Orqan Musiqisi Zalı**
**28 May 17**

| | | |
|---|---|---|
| 7 mart | 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konsert ("Gənclərə dəstək" layihəsi) | 19.00 |
| 9 mart | "Muğam aləmi" V Beynəlxalq Musiqi Festivalı – Q.Qarayev adına Dövlət Kamera Orkestrinin konserti (bədii rəhbər və baş dirijor Teymur Göyçayev) | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi**
**Dənizkənarı Milli Park**

| | | |
|---|---|---|
| 7 mart | "Aşıq musiqisi axşamları" – "Zərif əllər, incə tellər" adlı konsert | 19.00 |
| 8 mart | "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalı<br>"Rast" muğamı - ifa edir Elnur Zeynalov | 19.00 |
| 9 mart | "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalı<br>"Şur" muğamı – ifa edir Qoçaq Əsgərov | 19.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı**
**R.Behbudov küçəsi 12**

| | | |
|---|---|---|
| 9 mart | "Şən və hazırcavablar klubu"nun konserti | 19.00 |

## TƏQVİM



**6-9 mart**

### Azərbaycan

**6 mart 1920** - Filologiya elmləri doktoru Yəhya Qasım oğlu Seyidov (1920 - 4.12.1980) Ordubadda anadan olub.

**6 mart 1931** - Yazıçı, tərcüməçi, Əməkdar incəsənət xadimi Fərman Allahverdi oğlu Eyvazov (1931-1996) Ağstafa rayonunda anadan olub.



**6 mart 1955** - Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, ictimai-siyasi xadim, yazıçı-publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (31.1.1884 - 1955) Ankarada vəfat edib. 1918-ci ildə Zaqafqaziya Seymində Azərbaycan fraksiyasına rəhbərlik edib, mayın 27-də Azərbaycan Milli Şurasının sədri seçilib. Xalq Cümhuriyyətinin süqutundan (1920) sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib. Mətbu orqanlarda yazılarla çıxış edib. "Əsrimizin Səyavuşu", "Azərbaycan şairi Nizami", "Çağdaş Azərbaycan ədəbiyyatı" və s. əsərlərin müəllifidir.

**7 mart 1908** - Xalq rəssamı Salam Əbdülqasım oğlu Salamzadə (1908-1997) anadan olub. Azərbaycan modernizminin nümayəndələrindən biridir. Əsərləri: "Toxuculuq fabriki", "Fermada qadın" və s.



**7 mart 1926** - Xalq şeirinin görkəmli nümayəndəsi Aşıq Ələsgər (1821-1926) vəfat edib. 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində doğulub. Həyatın çox gərdişindən keçən, 1918-ci ildə qaçqınlıq taleyi yaşayan sənətkar ömrünün sonuna yaxın doğulduğu kəndə qayıdıb və orada dünyasını dəyişib.

**7 mart 1945** - Xalq artisti Xuraman Hacıyeva (1945 - 15.2.2005) anadan olub. "Arşın mal alan" (1965, Asya), "Lətifə" və s. filmlərdə çəkilib. Gənc Tamaşaçılar, Naxçıvan Musiqili Dram teatrlarında işləyib.



**8 mart 1911** - Xalq artisti Ağadadaş Qurbanov (1911 - 25.6.1965) anadan olub. Gənc Tamaşaçılar Teatrında, Milli Dram Teatrında çıxış edib. "Koroğlu" (Həsən xan), "Bir qalanın sirri" (Usta), "Bizim küçə" (Bəhram), "Arşın mal alan" (1965, Soltan bəy) və s. filmlərdə çəkilib.

**8 mart 1923** - Ədəbiyyatşünas, teatrşünas Ədilə Əlihüseyn qızı Əliyeva (1923-1984) anadan olub.

**8 mart 1934** - Xalq artisti, tar ifaçısı Ceyran Haşımova anadan olub. "Lalə" qızlar ansamblının yaradıcısıdır.

**8 mart 1940** - Kinooperator Ramiz Əlirza oğlu Babayev (1940 - 11.1.1994) Bakının Əmircan qəsəbəsində doğulub. "Şərikli çörək", "Qanlı zəmi" və s. filmlərdə quraşdırılmış səhnələrin operatorudur.

**8 mart 1947** - Şair, publisist Ağamalı Sadiq Əfəndi (Ağamalı Əhməd oğlu Əfəndiyev; 1947 - 24.12.1995) Qazax rayonunun Qaymaqlı kəndində doğulub. Kitabları: "Əyil, səndən keçim, dünya", "Vətən üçün yaşanmış əfəndi ömrü" və s.

**8 mart 1947** - Şair, yazıçı Məmməd Oruc anadan olub. "Yadigar mahnı", "Leylək körfəzi", "Köçürülmə" kitablarının, "Təbriz almaları", "Oğulla görüş" və s. pyeslərin müəllifidir.



**9 mart 1915** - Xalq rəssamı Kamil Əli Abbas oğlu Xanlarov (1915-1996) anadan olub. Füsunkar təbiət lövhələrini kətana köçürüb: "Zaqatala dağları", "Şuşa", "Araz sahilində", "Ordubadda qış" və s.

**9 mart 1929** - Tanınmış diktor Gültəkin Əjdər qızı Cabbarlı (1929 - 15.10.1996) anadan olub. Azərbaycanda peşəkar diktorluq məktəbinin yaranmasında xüsusi xidmətləri olub.

**9 mart 1933** - Yazıçı-publisist, tərcüməçi Əliağa Hacı oğlu Yasinzadə (1933-2005) Quba rayonunun Qarxun kəndində anadan olub. Kitabları: "Berlin gündəliyi", "Əsgər ürəyi", "Yaşıl xiyaban" və s.

**9 mart 1947** - Xalq artisti, kamança ifaçısı Şəfiqə Alxas qızı Eyvazova anadan olub. Azərbaycan Milli Konservatoriyası Xalq çalğı alətləri kafedrasının professorudur.

**9 mart 1952** - Aktyor Əhməd Haşım oğlu Qəmərlinski (Məlikov; 1880-1952) vəfat edib. Bakı Azad Tənqid-Təbliğ Teatrının aktyoru və rejissoru olub. "İsmət" (1934), "Almaz" (1936), "Səbuhi" (1941) filmlərində çəkilib. Pyeslər yazıb.

### Dünya

**6 mart 1475** - İtalyan rəssamı, Avropa İntibahının görkəmli sənətkarı Mikelancelo Buonarrotti (Michelangelo di Lodovico Buonarroti Simoni; 1475-18.2.1564) anadan olub. Rəssamlıqla yanaşı, heykəltəraş, memar, şair kimi də tanınıb.

**6 mart 1909** - Polyak satirik-yazıçısı, şair, filosof Stanislav Yeji Les (Stanislaw Jerzy Lec, 1909-1966) anadan olub.



**6 mart 1928** - Kolumbiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1982) laureatı Qabriel Qarsia Markes (Gabriel Jose de la Concordia Garcia Marquez; 1928 - 17.4.2014) anadan olub. Əsərləri: "Polkovnikə heç kim yazmır", "Arzuolunmaz saat", "Yüz il tənhalıqda", "Patriarxın payızı" və s.

**7 mart 1875** - Fransız impressionist rəssamı, dirijor, XX əsr musiqisinin islahatçılarından Moris Ravel (Joseph Maurice Ravel, 1875-1937) anadan olub.

**7 mart 1924** - Yapon yazıçısı, dramaturq, ssenarist Kobe Abe (əsl adı Abe Kimifusa; 1924-1993) anadan olub. "Qumsallıqda qadın", "Özgə sifət" və s. romanların müəllifidir.

**7 mart 1941** - Rusiyanın Xalq artisti Andrey Mironov (Menaker; 1941 - 16.8.1987) anadan olub. Filmləri: "Brilyant əl", "12 stul", "Avtomobildən qorun", "İtalyanların Rusiyada ağlasığmaz macəraları" və s.

**8 mart** Beynəlxalq Qadınlar Günüdür. Günün tarixi 1857-ci il martın 8-də Nyu-York toxucularının sosial tələblərlə keçirdikləri yürüşlə bağlıdır. 1910-cu ildə Kopenhagendə qadınların beynəlxalq konfransında yəhudi əsilli alman sosialisti Klara Setkinin təşəbbüsü ilə bu tarixin "Beynəlxalq qadınlar günü" kimi qeyd edilməsi qərara alınıb. Dünyanın bir çox ölkələrində qeyd olunur.

**8 mart 1575** - Alman filosofu Yakob Böme (Jakob Böhme, 1575-1624) anadan olub.



**8 mart 1851** - Görkəmli maarifçi, mütəfəkkir, ictimai xadim İsmayıl Qaspralı (Qasprinski; 1851 - 24.9.1914) Krımın Qaspra şəhərində doğulub. Türk xalqlarının maarifçilik tarixində böyük xidmətlər göstərib. "Tərcüman" qəzetinin naşiri olub.

**9 mart 1814** - Ukrayna şairi, yazıçı, rəssam Taras Qriqoryeviç Şevçenko (1814 - 10.3.1861) anadan olub. Klassik Ukrayna ədəbiyyatının banisidir. "Kobzar" poetik toplusu, "Yuxu", "Qafqaz" poemaları və s. əsərlərin müəllifidir.

**9 mart 1934** - Moldova aktyoru, SSRİ Xalq artisti Mixay Volontir (1934 - 15.9.2015) anadan olub. Filmləri: "Qaraçı", "Budulayın qayıtması", "Tütək səsi" ("Azərbaycanfilm") və s.

*Hazırladı: Vüqar Orxan*

# Qazaxıstanda Xalq Cümhuriyyəti ilə bağlı kitab çap olunacaq

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Beynəlxalq Türk Akademiyası tərəfindən ilk dəfə qazax dilində Cümhuriyyət haqqında məlumat, fakt və sənədlərin əks olunduğu kitab çapa hazırlanır.**



Bu barədə Astanada Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali məlumat verib. Akademiyanın rəhbəri qeyd edib ki, Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və digər ölkələrdən nüfuzlu alimlərin məqalələrinin yer aldığı kitabda Cümhuriyyətin o dövrdə Mərkəzi Asiyada mövcud olmuş muxtariyyətlərlə əlaqələrindən də bəhs ediləcək.

Darxan Kıdırali qeyd edib ki, qazax dilində indiyədək Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı dolğun məlumatların əks olunduğu mənbə yox idi. Kitab may ayında Bakıda və Astanada təqdim olunacaq.

Bundan başqa, Azərbaycan alimlərinin iştirakı ilə Astanada Cümhuriyyətin 100 illiyinə həsr olunan seminar da təşkil ediləcək. İyunun 18-də Qazaxıstanda keçiriləcək III "Böyük Çöl" Humanitar Forumunun bir paneli isə bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunacaq.

Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilən və Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransındakı fəaliyyətini əks etdirən "Əbədi ezamiyyət" sənədli filminin də Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilinə subtitrlə tərcüməsi və 28 May - Respublika Günü ərəfəsində Qazaxıstan televiziya kanallarında yayımlanması nəzərdə tutulur.

Darxan Kıdırali onu da deyib ki, Beynəlxalq Türk Akademiyasının rəhbərliyi, 26 ölkədən tədqiqatçıların iştirakı ilə hazırlanan "Təhlükədəki türk dilləri" dördcildliyi bu il aprelin 30-da UNESCO-nun mənzil-qərargahında təqdim olunacaq.

Beynəlxalq Türk Akademiyası "Türk dünyasının 100 görkəmli şəxsiyyəti"nin siyahısını da tərtib etmək niyyətindədir. Layihə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə həyata keçirilən "Mənəvi yeniləşmə" ("Ruhani janğıru") proqramı çərçivəsində reallaşdırılacaq.

D.Kıdıralinin sözlərinə görə, bu layihə dünya tarixində öz izini qoymuş türk xalqlarının böyük nümayəndələrinin adlarının aşkarlanması məqsədi daşıyır.

## Türk yazıçısının Xocalıdan bəhs edən əsəri dərc olunub

Türkiyə yazıçısı Zeynalabidin Makasın "Muradı gözündə qalanlar" adlı əsərindən bir hissə Azərbaycan Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanı olan "Azərbaycan" jurnalının fevral sayında dərc edilib.

Qarabağ mövzusu ilə bağlı əsərdə Xocalı faciəsinin ağrı-acıları da yer alıb. Əsərin jurnalda dərc olunan hissəsini Azərbaycan dilinə şair-tərcüməçi Qardaşxan Əzizxanlı çevirib.

# "Məqsədimiz həm də ortaq mədəni dəyərlər ətrafında birləşməkdir"

**Türkdilli ölkələrin əlaqələri gücləndikcə bu sahədə işbirliyini genişləndirmək məqsədilə müxtəlif ictimai təşəbbüslər ortaya çıxır, yeni təşkilatlar qurulur.**
**Ankarada yeni fəaliyyətə başlayan Türk Dünyası Parlamentlər (TDP) Birliyi də bu qəbildəndir. Qurumun rəhbəri Türkiyə Böyük Millət Məclisinin (TBMM) Trabzondan millət vəkili olmuş Nail Çələbidir.**



Məlum olduğu kimi, bu sahədə dövlətlərarası qurum - Türkdilli Ölkələrin Parlamentlər Assableyası (TÜRKPA) mövcuddur. Elə isə oxşar məqsədli ictimai qurumun yaradılması hansı ehtiyacdan irəli gəlib. Həmsöhbətim Nail Çələbi bu suala belə cavab verdi:

- TBMM-də 21-ci dönəm millət vəkilliyim bitdikdən sonra siyasətdə qalmaq istəmədim. Hələ gənclik illərimdən bir türk sevdalısıyam. Millət vəkili olarkən də Türk dünyasının daha da gücləndirilməsi, qardaş xalqların bir-birinə qaynayıb-qarışması üçün təşəbbüslərimiz olmuşdu. Ankarada bizim Türk Parlamentləri Birliyimiz var. Amma onun üzvləri sadəcə Türkiyə millət vəkilləridir. 2013-cü ildə Türk Dünyası Parlamentlər Dərnəyini qurmaq qərarına gəldik. 2015-ci ildə bu qurumun baş katibi seçildim. Ötən il isə dərnəyin adını Türk Dünyası Parlamentlər Birliyi olaraq dəyişdirdik. TÜRKPA-dan fərqimiz odur ki, həmin qurumda fəaliyyətdə olan millət vəkilləri təmsil olunur. Bizim qurum həm də keçmiş millət vəkillərini işbirliyinə, üzvlüyə dəvət edir. Bir sözlə, Türk dünyası parlamentlərində aktiv olmuş hər kəsi bir araya gətirmək istəyirik. Bununla da əlaqələri gücləndirmək, onların birbirilərini daha da yaxından tanımalarına fürsət yaratmaq niyyətindəyik.

**- Türkdilli respublikalarda bu təşəbbüsə münasibət necə oldu?**

- Münasibət müsbət oldu. Məsələn, Qırğızıstan parlamentinin (Joqorku Keneş) sədri bizim birliyin üzvüdür. Pakistanda, Kosovada, Şimali Kiprdə təmsilçimiz var. Yaxın vaxtlarda Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan daxil olmaqla türklərin yaşadığı bütün bölgələrlə işbirliyi qurmağı planlaşdırırıq. Məqsədimiz budur ki, bir-birimizi tanıyaq və böyük olaq: siyasi, iqtisadi və mədəni baxımdan bərabər olaq. Hazırda 150-yə qədər üzvümüz var. Martın 10-da Beynəlxalq Qadınlar Günü ilə bağlı panelimiz olacaq və oraya da Ankaradakı türk respublikaları səfirliklərinin nümayəndələrini dəvət etmişik. Bundan başqa, birliyin özünün jurnalı da olacaq və artıq bu istiqamətdə işlərə başlamışıq.

**- Birliyin mədəniyyət fəaliyyətlərində əsas hədəflər nə olacaq?**

- Bizim ortaq tariximiz və bu tarixdən gələn qardaşlıq bağlarımız, mədəni zənginliyimiz mövcuddur. Məqsədimiz həm də bu mədəni dəyərlər ətrafında birləşməkdir. Bundan başqa, Türk dünyasında xeyli sayda tanınmış yazıçı, şair və incəsənət adamları var. Biz onlarla müxtəlif sahələrdə işbirliyi quracaq, teztez bir araya gələcəyik. Bu tədbirlərdə hər kəs öz tarixini anladacaq, televiziya proqramları düzənlənəcək, layihələr gerçəkləşdirəcəyik. Bununla da aramızda bir mədəni ünsiyyət qurulacaq. Orta Asiya bizim mədəniyyət coğrafiyamızdır. Atalarımız orda doğuldu, orda böyüdü. Biz türkün olduğu hər yerdə olacağıq.

Azərbaycanda da bir təmsilçilik qurmağı planlaşdırırıq. Azərbaycan bizim ana yurdumuzdur, öz vətənimizdir. Biz iki dövlət, bir millətik. Eyni dinə inanır, eyni dili, mədəniyyəti paylaşırıq. Vətənim mənim üçün nədirsə, Azərbaycan da mənim üçün odur.

**Mehparə Sultanova**
*Ankara*

# "Babam və oğlum" - kimdir günahkar?

**Martın 2-də Nizami Kino Mərkəzində son illər Türkiyə kinosunun ən sanballı filmlərindən olan "Babam və oğlum" bədii filminin nümayişi keçirildi. Böyük izləyici auditoriyası olan film yerli kinosevərlər tərəfindən də rəğbətlə qarşılandı.**

2005-ci ildə rejissor Çağan İrmak tərəfindən çəkilən bu film Türkiyənin Ege bölgəsindəki kənddən ali təhsil almaq üçün gedən gəncin (Sadık) illər sonra tək və kiçik oğlu ilə kəndə dönüşündən bəhs edir.

Əslində, film Türkiyədə 1980-ci il 12 sentyabr hərbi çevrilişinin mahiyyətini açmağa xidmət edir, bu hadisə nəticəsində günahsız insanların bada getmiş həyatlarına işıq tutulur, alt qatdakı səbəblər axtarılır. Türkiyədə kinoteatrlarda 4 milyona yaxın tamaşaçının izlədiyi film psixoloji dram janrında çəkilən ən yaxşı ekran əsərlərindən biridir. Əsər həzin musiqisi, zarafatcıl, qayğıkeş obrazları, incə yumoru, dərin kədəri və fəlsəfəsi ilə tamaşaçını düşündürür, göz yaşlarına səbəb olur.

Filmin əsas məzmunu belədir: Sadıkın atası Hüseyn əfəndi kənd təsərrüfatı sahəsində imkanlı bir adamdır. İstəyir ki, oğlu kənd təsərrüfatı üzrə ali təhsil alıb qayıtsın, onun təsərrüfatını idarə etsin. Sadık isə tələbəlik illərindən siyasətə qoşulur. Bunu öyrənən atası onu övladlıqdan çıxarır. 70-ci illərdə bir çox siyasi hadisələrə qoşulan Sadık zor günlər yaşayır, həbsxanalara düşür. 1980-ci ilin 12 sentyabrı onun həyatında faciəli gün kimi yadda qalır. Həmin gün səhərə yaxın o, hamilə həyat yoldaşının doğum sancılarının tutması səbəbindən xəstəxanaya getmək üçün yola çıxır, ancaq yolda maşın tapılmır. Ona görə ki, ölkədə fövqəladə vəziyyət elan olunub. Bu üzdən qadın elə yaşadığı evin yaxınlığındakı ağaclıqda doğur və çoxlu qanitirmədən ölür. Uşaq isə sağ qalır. Atası oğluna Dəniz adı qoyur.

Yatdığı həbsxanalarda gördüyü işgəncələrdən dolayı sağlamlığını itirən Sadık tezliklə öləcəyini düşünür, son məqamda oğlu ilə kəndə - ata evinə dönür. Atası oğlunu evə buraxsa da, onunla danışmır, nəvəsinə də saymaz yanaşır. Axır ki, Sadık təkidlə atasına yaxınlaşır, oğlunu ona əmanət etdiyini, Dənizin yaşaması üçün qayğı göstərməsini istəyir. Bundan sonra o, xəstəxanaya yerləşdirilir. Artıq onun ciyərləri sıradan çıxmışdı. Beləliklə, Sadık xəstəxanada keçinir.

Atası Hüseyn əfəndi indi oğlunun ölümünə görə özünü suçlu sayır. Qışqıraraq "Niyə səni oxumağa göndərdim ki, bu baş verdi?" deyir. Oğlunun ölümündən sonra övladının qoxusunu onun yadigarı olan Dənizdən almağa başlayır...

**S.Qaliboğlu**



Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

7 MART 2018 18 [1508]

Mədəniyyət

www.medeniyyet.az

# “Baku Guide” bələdçi kataloqunun mart sayında




**Novruz Azərbaycan xalqının ən qədim və gözəl bayramıdır. Onun məxsusi ab-havasını dərindən hiss etmək üçün bayram günlərində sizlərə, şəhərimizi gəzib-görməklə yanaşı, Azərbaycanın regionlarına da səyahət etməyi və yerli əhalinin ənənələri ilə yaxından tanış olmağı tövsiyə edirik.**







Bu fikirlər Azərbaycan paytaxtına təşrif buyuran xarici qonaqlar üçün səyahət bələdçisi olan “Baku Guide” kataloqunun 2018-ci il mart sayında diqqətə çatdırılır. İngilis və rus dillərində hazırlanan kataloq “Baku Guide” MMC tərəfindən nəşr olunur. Şəhərimizi istirahət, ziyarət və ticarət məqsədli bütün özəllikləri ilə təqdim edən nəşrin mart sayı da maraqlı yazılar, illüstrativ materiallar, faydalı informasiyalarla zəngindir.

Nəşrin ənənəvi “Bakını kəşf et” bölməsində paytaxtın tarixi-mədəni və turistik panoramı təqdim olunur. Həmçinin paytaxtdan regionlara günlük səfər etmək istəyənlər üçün “Azərbaycan üzrə yaz marşrutu” təklif olunur. Bu dəfə marşrut Şamaxı, İsmayıllı, Qəbələ, Şəkidən keçir.

Mart ayının ən əlamətdar günləri olan Novruz bayramı haqqında “Baharın doğuluşu” adlı yazıda ətraflı söz açılır, bayramın özəllikləri, Novruz öncəsi dörd çərşənbənin mahiyyəti, ayinləri, səməni, bayram süfrəsi ilə bağlı maraqlı məqamlar diqqətə çatdırılır.

“Əsrarəngiz Bakı...” yazısında şəhərin daha çox yerli sakinlərin tanıdığı məşhur məkanlarından bəhs olunur. Eyni zamanda qonaqlara Bakının göydələnlərindəki restoranlarda ləziz yeməklərdən dadaraq şəhərin ecazkar görüntülərini “ulduzların altında” seyr etmək təklif edilir.

Bu bölmədə həmçinin gənclərin aktiv istirahəti, balacalar üçün əyləncə mərkəzləri barədə məlumat verilir. “Bakının musiqili axşamları” yazısı milli və xarici musiqilərin müşayiəti ilə nahar və şam etmək istəyənlərə ünvanlanıb.

“Azərbaycan Müasir İncəsənət Muzeyindəki avanqard və ənənələr” yazısı, xalçalarla maraqlı instalyasiya və 3D əsərlər yaradan rəssam Faiq Əhmədin ekspozisiyası haqqında material isə sənətsevər səyahətçilərin xüsusilə diqqətini çəkəcək.

Kataloqun “Sənət və mədəniyyət” bölməsində ənənəvi olaraq ay ərzində paytaxtın mədəniyyət müəssisələrində keçiriləcək tədbirlər, teatrların, muzeylərin, qalereyaların, konsert salonlarının repertuarı yer alır. Bununla bərabər, hər mədəniyyət və sənət məkanı haqqında yığcam tanıtım mətnləri və müvafiq fotolar da verilir. Yeri gəlmişkən, kataloqun bütün bölmələrini şəhərin xüsusi memarlığı ilə seçilən məşhur tarixi binalarının siluetləri müşayiət edir. “Bakı haqqında maraqlı faktlar” səhifəsində bu dəfə şəhərimizdə lentə alınmış məşhur xarici filmlərdən söz açılır.

Kataloqda mart ayı ilə bərabər qarşıdakı aylarda Bakıda keçiriləcək böyük tədbirlərin, beynəlxalq yarış, sərgi və festivalların (AİTF 2018 turizm sərgisi (aprel), Bakı Şopinq Festivalı (aprel-may), Formula 1 (aprel), “Tour d`Azerbaidjan” yarışı (may), “Jara” festivalı (iyul) və s.) anonsu verilir.

“Yemək və içkilər” bölməsində paytaxtın yerli və dünya mətbəxi nümunələri təklif edən məşhur restoran və kafeləri, bar və pabları barədə informasiyalar verilib. Bundan əlavə, milli mətbəximizin şahı sayılan plov haqqında, onun bir-birindən ləziz növləri barədə ayrıca yazı dərc olunub.

“Şopinq” bölməsi şəhərimizin həm istirahət, həm ticarət həvəskarı olan qonaqlarına bələdçilik edir. Burada Bakının iri ticarət mərkəzləri, milli suvenirlər və brend mallar təklif edən mağazaları barədə zəruri məlumatlar almaq olar.

“Əyləncə” bölməsində şəhərdəki kino nümayişi məkanları, gecə klubları, müxtəlif sərgilər barədə xəbərdar olmaq, eləcə də “Bakı şəhər turu”nun (Baku City Tour) marşrutu ilə tanış olmaq olar.

“Görməli yerlər və tarixi abidələr” bölməsi oxucuları minilliklərin daş yaddaşı olan Qobustan qoruğuna, Atəşgah məbədinə və Yanardağa səyahətə, Bakının memarlıq inciləri ilə tanışlığa, İçərişəhərin tarixi məkanlarını gəzməyə dəvət edir.

Kataloqun ənənəvi “İnfo-bələdçi” bölməsində turistlər üçün zəruri bilgilər, “ASAN Viza” və “Tax Free” xidməti haqqında informasiyalar, hotellərin, səfirliklərin, turizm informasiya mərkəzlərinin ünvan və telefonları təqdim olunur.

# 90-cı “Oskar”

## “Suyun forması”na düşdü



**Martın 4-də Los Ancelesdə, Hollivudun məşhur “Dolbi” kinoteatrında Amerika Kino Akademiyasının təsis etdiyi ”Oskar” mükafatının təqdimat mərasimi keçirilib.**

”Oskar” heykəlciklərinin sayca 90-cı təqdimatı sürprizsiz ötüşüb. Hərçənd gecənin əsas intriqasında - “Ən yaxşı film” nominasiyasında mükafatın meksikalı Guillermo del Toronun “Suyun forması” filminə verilməsi bəziləri üçün gözlənilməz olub. Ekran əsəri bir qədər əvvəl BAFTA və “Qızıl qlobus” mükafatlarını qazanaraq “Oskar” üçün əsas favorit sayılan Martin Makdonaxın “Ebbinqin sərhədində üç bilbord, Missuri” filmini qabaqlayıb. Qeyd edək ki, “Suyun forması” həmin mükafatlardan kənarda qalsa da, ötən il Venesiya kinofestivalında “Qızıl şir”ə layiq görülüb. “Oskar” gecəsində Guillermo del Toro da “Ən yaxşı rejissor” kimi mükafatlandırılıb.

“Suyun forması” filmi “soyuq müharibə” dönəmində gizli laboratoriyada çalışan lal qadın (Salli Hokins) ilə buradakı naməlum antropomorf varlıq (insan-amfibiya) arasında münasibətlərdən bəhs edir.

“Ebbinqin sərhədində üç bilbord, Missuri” filmi isə “Ən yaxşı aktrisa” (Frensis Makdormand) və “İkinci planda ən yaxşı aktyor” (Sem Rokuel) nominasiyalarında fərqlənib.

“Ən yaxşı aktyor” nominasiyasında “Qaranlıq saat” filmində yaratdığı Uinston Çörçill obrazına görə Qari Oldman seçilib, “İkinci planda ən yaxşı aktrisa” isə ”Mən, Tonya” filminə görə Allisson Janney qazanıb.

Bundan başqa, “Xarici dildə ən yaxşı film” mükafatı Çili rejissoru Sebastyan Lelionun “Fantastik qadın” filminə verilib. Rus rejissor Andrey Zvyagintsev ilk beşlikdə olan “Sevgisizlik” filmi ilə mükafata iddia etsə də, 2015-ci ildə (“Leviafan” filmi) olduğu kimi, yenə diqqətdən kənarda qalıb.

“Ən yaxşı qısametrajlı animasiya filmi” nominasiyasında “Əziz basketbol”, “Ən yaxşı tammetrajlı animasiya filmi” nominasiyasında “Kokonun sirri”, “Ən yaxşı qısametrajlı sənədli film” nominasiyasında “Cənnət 405-ci şosedəki tıxacdır”, “Ən yaxşı tammetrajlı sənədli film” nominasiyasında “İkar” (Rusiyada idmançıların dopinq qalmaqalından bəhs edir), “Ən yaxşı qısametrajlı bədii film” nominasiyasında “Lal uşaq” “Oskar”a layiq görülüblər.

Həmçinin Cordan Pil “Rədd ol” filminin ssenarisinə, bəstəkar Aleksandr Despla “Suyun forması” filmi üçün yazdığı musiqiyə, Kristen Anderson-Lopes və Robert Lopes “Kokonun sirri” filmi üçün yazdıqları “Remember Me” (“Məni xatırla”) mahnısına görə mükafatlandırılıblar.

Qeyd edək ki, ”Oskar” mükafatı Amerika Kino Akademiyası tərəfindən 1927-ci ildə təsis edilib.

**İlona**



**Baş redaktor:**
Vüqar Əliyev

Qəzet 1991-ci ildən çıxır.

**Ünvanımız:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Tel.:** (012) 431-57-72; 431-28-79; 430-16-79
**Tel/faks:** (012) 431-28-79;
**E-mail:** qazet@medeniyyet.az

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “B-Z” mətbəəsində çap olunmuşdur.

Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə olunur.

KAPİTAL BANKın
Yasamal filialı kod: 200037
VÖEN 9900003611
M/h AZ37NABZ01350100000000001944
SWIFT BIK AIIBAZ2X
H/h AZ98AIIB33080019443300232103
VÖEN 1300338641
Lisenziya №AB 022279
İndeks 0187

**Buraxılışa məsul:**
Fariz Yunisli

**Tiraj:** 5215

*Materiallardakı faktlara görə müəlliflər cavabdehdir.*